www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 iyul 2018-ci il Cümə axşamı № 149 (7038) Qiymәti 60 qəpik

**Xəbər**

## Azərbaycanda 41 saxta din xadimi aşkarlandı

yazısı səh.2-də

**Gündəm**

### Prezidentin köməkçisi Gəncə hadisələrinin mahiyyətini açdı



Əli Həsənov: "Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar"

yazısı səh.3-də

### Ərdoğanın Bakıda verdiyi mesajlar: qardaşlıq əlaqələri yeni mərhələyə keçdi

yazısı səh.9-da

### Gəncə olaylarının gizli kodları: onları necə oxuyaq?

yazısı səh.12-də

### NATO gündəliyində Qarabağ - erməni məkri nəyə hesablanıb?

yazısı səh.11-də

### Elmar Məmmədyarov həmsədrlərlə görüşdü

yazısı səh.2-də

### Müxalifətdən dövlətə tam dəstək: "Cinayətdir və..."

yazısı səh.5-də

*Hacı Şahin Həsənli:*

### "Onları dindar hesab etmirəm, ayıq olun"

yazısı səh.3-də

### Yevda Abramovdan Elmar Vəliyevə və Mingəçevir olaylarına dair ilginc açıqlama

yazısı səh.7-də

### Gəncədə polisləri qətlə yetirənlərdən biri öz anasını öldürübmüş

yazısı səh.12-də

### 25 yaşlı gənc göldə batıb öldü

yazısı səh.2-də

### Azərbaycan və İsrail birgə yeni növ pilotsuz sistemlər istehsal edəcək

yazısı səh.2-də

# GƏNCƏDƏKİ QANLI TƏXRİBATIN ARXASINDAKI GİZLİ QÜVVƏ - ÜZƏ ÇIXAN SİRLƏR

Elmar Vəliyevin güllələnməsinin ardınca şəhərdə iğtişaş törədərək iki yüksək rütbəli polisi öldürən şəxslərin xüsusi təlim keçdikləri və xaricdən idarə olunduqları şəksizdir; zabitləri öldürən şəxslər daha əvvəl ağır cinayətlər törətmiş adamlardır; onlardan biri öz anasını qətlə yetirib




yazısı səh.4-də

## İrəvandan Moskvaya kompromat savaşı - 1 mart işində "rus izi", Xocalı təhdidi...

Paşinyanın Rusiyanı ən zəif yerindən vurub uğurlu mövqeyə çıxmaq planı; Köçəryanın ətrafında mühasirə daralır; Rusiya müdaxilə etməsə, Xocalı soyqırımında adı keçən 366-cı rus alayı məsələsi gündəmə gələ bilər...

yazısı səh.8-də



*Elxan Şahinoğlu:*

### "Azərbaycana qarşı olan qüvvələr zəif nöqtələrimizi araşdırıb, oradan vururlar"

yazısı səh.7-də



*Eldar Əzizov:*

### "O vaxt təsəvvür edə bilməzdim ki, Gəncədə belə bir hadisə baş verə bilər"

yazısı səh.6-da



### Gəncəni kimlər və niyə qanadır...

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

# Prezident İlham Əliyev Brüsseldə mühüm görüşlər keçirdi





## Azərbaycan və Aİ arasında tərəfdaşlıq prioritetlərinə dair sənəd paraflanıb

**Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb. APA-nın məlumatına görə, görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi olub.**

Azərbaycan prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşü zamanı Azərbaycanla Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulanıb. Eyni zamanda Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparılıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verib.

Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd edib.

Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycanla Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədini yüksək qiymətləndiriblər, bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını məmnuniyyətlə qeyd ediblər.

Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığın dəstəklənməsinə sadiqliyi ifadə olunur.

Tərəfdaşlıq və qarşılıqlı hörmətə əsaslanan sənəd, həmçinin Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətini, ölkəmizdə iqtisadi islahatlar gündəliyinin dəstəklənməsi istiqamətində görülən işlərə Avropa İttifaqının mümkün töhfəsini qeyd edir.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda "Cənub Qaz Dəhlizi" layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Sənəddə Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Eyni zamanda paraflanan sənəddə Azərbaycanla Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb.

İyunun 11-də Brüsseldə Azərbaycan prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Bu barədə Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.

Qeyd edək ki, Azərbaycan prezidenti NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün iyulun 10-da Belçika Krallığının paytaxtı Brüssel şəhərinə səfər edib.

## Azərbaycan və İsrail birgə yeni növ pilotsuz sistemlər istehsal edəcək

**Müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev İsrailin "Aeronautics" şirkətinin Direktorlar Şurasının sədri Yedidia Yaarinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, nazir müavini Yəhya Musayev Yedidia Yaarini "Aeronautics" şirkətinin Direktorlar Şurasının sədri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir müavini Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti barədə nümayəndə heyətinə məlumat verib.

Görüşdə Müdafiə Sənayesi Nazirliyi ilə "Aeronautics" şirkəti arasında birgə həyata keçirilən layihə əsasında Azərbaycanda müxtəlif pilotsuz uçuş aparatlarının istehsalı üzrə ixtisaslaşmış "AZAD Systems" müştərək müəssisənin uğurlu fəaliyyətindən danışılıb.

Nümayəndə heyətinin başçısı Yedidia Yaarin səmimi qəbula görə minnətdarlığını bildirib.

Sonda Müdafiə Sənayesi Nazirliyi ilə "Aeronautics" şirkəti arasında yeni növ pilotsuz sistemlərin birgə istehsalının təşkilinə dair niyyət protokolu imzalanıb.



## Masallıda mikroavtobus minik maşını ilə toqquşdu - 10 yaralı

**Masallı rayonunun Xıl kəndində "Ford" markalı sərnişin mikroavtobusu ilə "Hundai" markalı minik maşınının toqquşması nəticəsində 11 nəfər xəsarət alıb.**

APA-nın cənub bürosunun məlumatına görə, onlar Rusiya vətəndaşları - 1992-ci il təvəllüdlü Günay Asfarova, 2017-ci il təvəllüdlü Rubina Teymur qızı Asfarova, Bakı şəhər sakinləri - 2006-cı il təvəllüdlü Lalə Cabir qızı Zeynalova, 1977-ci il təvəllüdlü Nərmin Rauf qızı Babayeva, 1946-cı il təvəllüdlü Rubina Şirzad qızı Bayramova, Lənkəran rayon sakinləri - 1982-ci il təvəllüdlü Ağayar Gülməmməd oğlu Ağayev, 1981-ci il təvəllüdlü Nuranə Cabir qızı Qəhrəmanova, 1967-ci il təvəllüdlü Tünzalə Məzahir qızı Şükürova, 1959-cu il təvəllüdlü Məlahət İsmayıl qızı Məmmədova, Neftçala rayon sakini, 1982-ci il təvəllüdlü Ceyhun Şakir oğlu Hüseynli, Qax rayon sakini, 1982-ci il təvəllüdlü Nazir İsmayıl oğlu Musayevdir.

Xəsarət alanlar Masallı Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan bəzilərinin vəziyyəti orta-ağır qiymətləndirilir.

Faktla bağlı araşdırma aparılır.



## Elmar Məmmədyarov həmsədrlərlə görüşdü

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov iyulun 11-də Brüsseldə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüb. APA-nın xəbərinə görə, bu barədə XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev şəxsi twitter səhifəsində yazıb. Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də iştirak edib.**

Tərəflər Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə ediblər.

## Azərbaycanda 41 saxta din xadimi aşkarlandı

**Azərbaycanda son bir ildə 41 saxta din xadimi aşkarlanıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı APA-ya açıqlamasında bildirib ki, 2017-2018-ci ilin may ayınadək komitənin mərkəzi aparatı və bölgə əməkdaşları tərəfindən Azərbaycan İnzibati Xətalar Məcəlləsinin müxtəlif maddələri ilə həmin şəxslər barəsində protokol tərtib edilərək müvafiq qərar çıxarılması üçün aidiyyəti məhkəmələrə göndərilib.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

## Bu il KTN xətti ilə fermerlərə 10 mln. manat kredit veriləcək

**Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələrinin və Kreditlərin İdarə Edilməsi üzrə Dövlət Xidməti bu ilin sonuna qədər fermerlərə təxminən 10 milyon manat kredit ayırmağı planlaşdırır.**

"APA-Economics"in məlumatına görə, bunu Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələrinin və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin rəisi Mirzə Əliyev jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, artıq həmin məbləğdən 1,5 mln. manatını 40 fermer götürüb: "Ölkənin 20-dən çox rayonundan 40 fermer kredit əldə edib. Bunlar kənd təsərrüfatyönümlü rayonlardır. Həmin fermerlər əkinçilik, qoyunçuluq, iri buynuzlu




maldarlıq, həmçinin qablaşdırma ilə məşğul olanlardır. İnanırıq ki, bu ilin sonuna qədər fermerlərə kömək məqsədilə onlara əlavə vəsait ayıra biləcəyik".

**M. Əliyev deyib ki, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələrinin və Kreditlərin İdarə Edilməsi üzrə Dövlət Xidməti vəsaiti 2%-lə kredit təşkilatlarına, onlar da 7% olmaqla fermerlərə verirlər:** "Məqsədimiz faiz dərəcələrinin artırılması deyil, əksinə, azaldılmasıdır. Hazırda bazar araşdırması aparırıq. Çünki bizim qurumla yanaşı, Sahibkarlığa Kömək Milli Fondu kreditlər verir. Bazar araşdırmaları apararmaqda məqsədimiz potensialı artırmaq üçün hansı addımları ata biləcəyimizi müəyyənləşdirməkdir".

## 25 yaşlı gənc göldə batıb öldü

**Qazax sakini göldə batıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə rayonun Abbasbəyli kəndi ərazisində olan süni göldə baş verib. Rayonun Fərəhli kənd sakini, 1993-cü il təvəllüdlü İsmayılov Ozan Rəşid oğlu göldə çimən zaman boğulub. Əraziyə FHN-in Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin əməkdaşları dəvət olunub.**

Axtarış nəticəsində rayonun Fərəhli kənd sakini 1993-cü il təvəllüdlü Ozan Rəşid oğlu İsmayılovun meyiti sudan çıxarılaraq aidiyyatı üzrə təhvil verilib.

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Gəncədə baş verən iğtişaşla bağlı məqalə yazıb. Onun yazısını təqdim edirik:**

# Prezidentin köməkçisi Gəncə hadisələrinin mahiyyətini açdı

## Əli Həsənov: "Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar"



- İyul ayının 3-ü axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilmiş sui-qəsdlə bağlı BBC əməkdaşının sualına cavab verərkən, mən ilkin məlumatlardan çıxış edərək söyləmişdim ki, "bu, icra başçısına qarşı törədilmiş kriminal hadisədir, silahlı basqın olub, başçı və mühafizəçisi xəsarət alıb, hadisəni törədən şəxs yaxalanıb, hüquq-mühafizə orqanları lazımi tədbirləri görürlər". Belə ağır cinayət hadisələri zamanı müvafiq orqanların rəyi olmadan daha təfsilatlı şərhlə çıxış etməyi düzgün hesab etmədim. Bir dövlət məmuru kimi mənim həmin açıqlamam, əlbəttə ki, dövlətin hadisəni nəzarətə götürdüyü haqqında cəmiyyəti məlumatlandırmaq istəyi ilə əlaqəli olmuşdu.

İyulun 6-da Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin yaydığı birgə məlumatda baş vermiş cinayətin terror xarakteri, cinayəti törədən Yunis Səfərovun xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi bildirildi. Həm yerli, həm xarici mediada dərc olunmuş materiallarda, sui-qəsdçinin həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz Suriyada uğrunda döyüşdüyü "ideallar" naminə - şəriət dövləti bərqərar etmək üçün törətdiyi bəlli oldu.

Yunis Səfərov maddi təminatı yüksək olan bir ailənin övladıdır, xarici vətəndaşdır və təbii ki, Azərbaycanın hansısa bölgəsində sosial ədalət naminə "solçu inqilabı" haqqında düşünməyib də. Açıqlamalardan göründüyü kimi, o, bu əmələ uzun illər hazırlaşıb, öz niyyətini həyata keçirmək üçün müvafiq məqam və tapşırıq gözləyib. Görünür, Mingəçevir şəhərində baş vermiş qəza ilə əlaqədar yaranmış gərginlik bunun üçün əlverişli məqam hesab edilib.

Sözügedən dairələrə yaxın xarici media və facebook səhifələrinin hələ 2017-ci ilin əvvəllərində Gəncə İH başçısı haqqında islamofob və anti-şiə imici yaratmaq cəhdləri Azərbaycan KİV-lərində müzakirə olunmuşdu. Bu ilin əvvəllərindən isə müəyyən reket nəşrlərdə Elmar Vəliyevin kobud rəftarı haqqında dərc edilən materialların sayında kəskin artım müşahidə edilmişdi.

Görünür, ölkə əhalisinin dini mövzulara o qədər də həssas olmaması səbəbindən onun barəsində "sosial zülmün səbəbkarı" imici formalaşdırmağa ehtiyac varmış.

Hadisə baş verdikdən dərhal sonra radikal dini səhifələr və saytlar, Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılara bağlı KİV-lər Yunis Səfərovu yeni "gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı iaşə müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, Leyla Yunusova kimi antimilli ünsürlərdən kömək gəldi. Rusiyada "talış separatçısı kimi ad-san qazanmış" İsmayıl Şabanovun, Hollandiyada eyni statusla yaşayan Ələkrəm Hümmətovun çevrəsi cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər. 2016-cı ilin aprel döyüşləri zamanı erməni hərbi mundiri ilə ekranlardan Azərbaycanı, Azərbaycan əsgərini aşağılayan bir xain ona şeir də həsr etdi. Təsadüfi deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə sistemli ideoloji təxribatla məşğul olan bəzi xarici dini saytlar da bu günlərdə xüsusi canfəşanlıq göstərdilər. Kimə məxsusluğu bəlli olmayan Ru-clip.ru saytının Youtube kanalı isə "Səda HD" kimi təqdim olunan şirkətin hazırladığı və üsyana səsləyən 5 klip - çağırış yayımladı.

Beləliklə, biz dövlətçiliyimizə qarşı separatçıların, radikal dindarların, yalnız pula və məişət komfortuna işləyən "iaşə müxalifəti"nin sinxronlaşdırılmış ideoloji təxribatı faktı ilə üz-üzəyik. Xarici anti-Azərbaycan qüvvələrin bu mənfur niyyətini anlamaq olar, ancaq daxildən onlara dəstək verən, poilis əməkdaşlarına qarşı qəddar cinayətə bəraət qazandırmağa çalışan, yaxud da xaricə qaçıb erməni maliyyəsinin girovuna çevrilənlərin xain canfəşanlığını heç cür başa düşmək mümkün deyil.

Belə həssas vəziyyət cəmiyyətimizin, bütün vətəndaşlarımızın milli dövlətçilik ətrafında daha sıx birliyini tələb edir. Xüsusən ictimai rəyə təsir imkanı olan insanlar - millət vəkilləri, ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, siyasi fəallar, media və QHT təmsilçiləri daha həssas davranmalı, iqtidara və ya onun ayrı-ayrı nümayəndələrinə bəslədikləri fərdi münasibətlərlə dövlət və Vətən mənafelərini bir-birindən fərqləndirməlidirlər.

XIX əsr Rusiyasında Vera Zasuliç adlı qadın ilk terror aktını həyata keçirəndə rus ziyalılarının müəyyən kəsimi onu qəhrəman kimi təqdim etməyə çalışmışdı və buna qismən nail də olmuşdular. Həmin terrorun mifləşdirilməsi ilə başlayan hadisələr sonrakı dövrdə Rusiyada üç inqilaba, milyonlarla insanın vətəndaş savaşında həlak olmasınadək inkişaf etmişdir.

İdeoloji təxribat deyəndə bir məqamı da yada salmaq yerinə düşərdi. Yaxın tariximizdə Azərbaycan əsilli xarici vətəndaşın törətdiyi ilk terror aktı Azərbaycan Dövlət Neft Akademiyası hadisəsidir. Amma həmin terror öz hədəfinə çatmamış, terror aktı, onu törədən şəxs və arxasındakı qüvvələr cəmiyyət tərəfindən birmənalı olaraq lənətlənmişdilər. Bu dəfə də terror Azərbaycan əsilli xarici vətəndaş tərəfindən törədilib. Amma qeyd etdiyim kimi, ona ictimai bəraət qazandırmaq üçün uzunmüddətli iş aparılıb. Bəzi sosial səhifələrdə "qalxın, digər şəhərlərdə də bunu təkrar edin" çağırışları terrorun yeni dalğasına çağırış kimin qiymətləndirilə bilər. Çünki bu aksiyalarda Azərbaycan vətəndaşlarının kütləvi iştirakını təmin etmək məqsədi güdülür.

1970-ci illərin ikinci yarısında Türkiyədə solçular və sağçılar öz aralarındakı gərginliyi və dövlətlə anlaşılmazlıqları silah, "devrim"(əslində terror) gücünə həll etməyə başlayanda Süleyman Dəmirəlin dediyi məşhur bir ifadə yadıma düşdü: "Cümhuriyyət polisinə güllə atan əllər kəsilməlidir". Əlbəttə ki, bununla müasir Türkiyədə heç də Osmanlı dövlətinin tarixinə aid olan sərt cəzanın birbaşa tətbiqi nəzərdə tutulmurdu, dövlətin məmurunu terror edənlərin sərt şəkildə cəzalandırılmasının vacibliyinə diqqət çəkilirdi.

Əminliklə deyə bilərəm ki, Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar. Bununla yanaşı, təsadüfən, hadisə ictimai maraq kəsb etdiyinə görə, öz iradələrinin əleyhinə olaraq bu əməlin iştirakçısına çevrilmiş hər kəsi bu yanlış addımlardan çəkinməyə dəvət edirəm. Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu olmamalıdır və bu dəyərlərə təhlükə yarandıqda hər bir vətəndaş, hər bir azərbaycanlı öz qəti mövqeyini ortaya qoymalı, milli iradəsini nümayiş etdirməlidir. Buna görə də Azərbaycan dövlətinin terror və terror çağırışlarına qarşı atacağı sərt addımların ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən düzgün anlaşılmalı, geniş kütlələrə düzgün mesajlar verilməlidir. Hər hansı səbəb və ya bəhanə ilə terrora bəraət qazandırmaq cəhdləri yolverilməzdir, sosial səhifələrin aktiv iştirakçıları və KİV nümayəndələri yazı, rəy və şərhlərində müvafiq qanunvericiliyin tələblərini və dövlət maraqlarını unutmamalı, hadisələrə daha peşəkar və obyektiv yanaşmalıdırlar.



# "Onları dindar hesab etmirəm, ayıq olun "

## Hacı Şahin Həsənli gəncəlilərə səsləndi: "Bu əməllər qanunların kobud şəkildə pozulması, dini dəyərlərin tapdalanmasıdır"

**"Birmənalı şəkildə bu hərəkətlərin dinlə əlaqəsi ola bilməz. İslam dini insanları aranı qarışdırmağa yox, barışdırmağa, sülhə xidmət edir. Hər hansı adamların din adı ilə hüquq-mühafizə orqanı əməkdaşlarına hücum etməsi dinlə əlaqəli deyil. Bu, dinin mahiyyətinə ziddir. Bu hərəkətlərin dinlə əlaqələndirilməsi yolverilməzdir".**

Bunu musavat.com-a "Məşədi Dadaş" məscidinin imam-cüməsi, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Şahin Həsənli Gəncədə baş vermiş iğtişaşı şərh edərkən deyib. O bildirib ki, gəncəli dindarların heç biri bu iğtişaşa qatılmayıb: "Uzun illərdir Azərbaycanda müxtəlif din nümayəndələri qardaş kimi yaşayır. Azərbaycanlının inancında aqressivliyə yer olmayıb. Azərbaycanlılar üçün din yaradana və yaradılışa məhəbbətdir. Belə bir şəraitdə bir qrup insanın din şüarı ilə bu cinayəti etməsi İslama qarşı xəyanətdir. Bu kimi hərəkətlərin birmənalı olaraq dinlə heç bir əlaqəsi ola bilməz. Gəncə əhalisi inanca, dini dəyərlərə bağlı insanlardır. Hadisə olan gecə Gəncədə olan inanclı insanlarla əlaqə saxladım. Onların heç biri Gəncədə baş vermiş iğtişaşa qatılmayıb. Onlar qeyd edirlər ki, bu iğtişaşın dinlə əlaqəsi yoxdur. İğtişaşı törədənlər dindarlar deyil, məhdud sayda qrupun üzvləridir. Ümumiyyətlə, Azərbaycanın inanclı insanları bu tip aksiyalarda iştirak etməyiblər".

**İlahiyyatçı Gəncə sakinlərinə səslənərək deyir ki, kimsə bizim inancımızdan istifadə etmək istəyir:** "Öz tərəfimdən Gəncədəki inanclı insanlara səslənmək istəyirəm ki, sadəcə, ayıq-sayıq olsunlar. Kimsə bizim inancımızdan sui-istifadə etmək istəyir. Çünki Azərbaycanda dini zəmində iğtişaşlar yaratmaq arzusunda olan qüvvələr, dövlətlər var. Onlar öz çirkin niyyətlərini din amilindən istifadə edərək həyata keçirtmək istəyirlər. Ona görə inanclı insanlar, ümumiyyətlə, Azərbaycanın bütün vətəndaşları ayıq-sayıq olmalıdılar ki, bu kimi hərəkətlərə yol verməsinlər. Bu günə qədər də yol verilməyib. Azərbaycanda radikallığın sosial bazası olmayıb, bu gün də yoxdur. Sadəcə olaraq, məhdud sayda insan dini şüarlardan istifadə edib. Bu da o demək deyil ki, o insanlar dindar olub. Onları dindar hesab etmirəm. Məlumatlara görə, onlar heç gəncəli də olmayıblar. Şəhərə kənardan gəlmiş insanlardır. İslam kimi tərəqqi din insanları zorakılığa, öz qardaşına silah qaldırmağa dəvət edə bilərmi? Əlbəttə ki, yox. Günahsız insanı öldürmək, qətlə yetirmək heç bir dində yoxdur. Onların əməlləri qanunların kobud şəkildə pozulması, dini dəyərlərin tapdalanmasıdır".

**Hacı Şahin Həsənli onu da qeyd edir ki, gəncəlilər tarixən dinin mənəvi dəyərlərinə bağlı olub:** "Gəncə ölkənin ikinci ən böyük şəhəridir. Eyni zamanda Gəncə mənəvi mərkəzlərimizdən biridir. Gəncə əhalisi tarixən dinin mənəvi dəyərlərinə bağlıdır. Hadisələri məhz Gəncədə keçirməklə göstərmək istəyirlər ki, iğtişaşı guya Gəncədəki inanclı insanlar törədib. Halbuki gəncəlilər və inanclı insanlar Azərbaycan dövlətinə heç vaxt xəyanət etməzlər. Onların bu planlarının da puç olacağına əminəm".

❑ **Ləman MUSTAFAQIZI,**
**Musavat.com**

**Gəncədə 1 həftə fərqlə dövlət hakimiyyətinin yerli icraedici orqanlarının rəhbər şəxslərinə qarşı 2 qanlı terror aktı törədildi. İyulun 3-də icra başçısı Elmar Vəliyev odlu silahdan açılan atəşlə ağır yaralanıb. İyulun 10-da isə axşam saatlarında bir qrup təxribatçı şəhər icra hakimiyyətinin binası qarşısında iğtişaş törədərək, Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasovu xəncərlə yaralayıb öldürdülər.**




# Gəncədəki qanlı təxribatın arxasındakı gizli qüvvə - üzə çıxan sirlər

## Elmar Vəliyevin güllələnməsinin ardınca şəhərdə iğtişaş törədərək iki yüksək rütbəli polisi öldürən şəxslərin xüsusi təlim keçdikləri və xaricdən idarə olunduqları şəksizdir; zabitləri öldürən şəxslər daha əvvəl ağır cinayətlər törətmiş adamlardır; onlardan biri öz anasını qətlə yetirib

İyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı qanlı aksiyanı Rusiyadan Azərbaycana gəlmiş Yunis Səfərov gerçəkləşdirib. Bundan sonra sosial şəbəkələrdə dini radikal cərəyanlara bağlı şəxslər, habelə xaricdəki müəyyən "şpionaj" fəaliyyəti ilə məşğul olan bəzi şəxslər onun müdafiəsinə yönəlik çağırışlar yaymağa başlayıb, aksiya anonsu veriblər. İyulun 10-da Gəncədə, Elmar Vəliyevə atəş açılan mərkəzi meydanda bu tələblə aksiya keçiriləcəyi elan olunub. Gün ərzində bu təxribatçı çağırışlara Gəncə əhalisinin uymaması səbəbindən şəhərdə sabitlik davam etdi. Axşamtərəfi saat 8-də isə meydana bir qrup təxribatçı soxulub. Həmin vaxt Gəncə Polis İdarəsinin rəis müavini polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov da meydanda olublar. Onlar toplaşanların dağılışması və provokasiyaya uymamaları üçün çağırışlar ediblər. Heç ağıllarına belə gətirməyiblər ki, silahsız-yaraqsız olduqları halda kimsə onlara hücum çəkə bilər. Bu zaman meydanın yaxınlığındakı məscidin ətrafından polislərə tərəf bir dəstə iri addımlarla irəliləyib. Şahidlər deyirlər ki, polislər qatillərinə hazırlıqsız yaxalanıblar. İlqar Balakişiyevə meydana toplaşanlara dağılışmaq çağırışı edərkən hücum olub. Sonradan yayılan videodan da görünür ki, İlqar Balakişiyevə hücum çəkən şəxslər onu vurub yerə yıxır, yerdə ona uzun xəncərlə xəsarət yetirir. Yayılan videoda diqqətçəkən məqamlardan biri də baş verənlərin "Allahu Əkbər" nidaları altında gerçəkləşdirilməsidir. Bu, böyük ehtimalla məqsədli davranışdır və hadisəyə dini don geyindirilməsi üçündür. Sanki məsələyə dini motiv qatılması kimi qarşıya məqsəd qoyulub və videoya bu səsin düşməsi üçün xüsusi hazırlıq görülüb. Elmar Vəliyevə qarşı aksiyadan sonra yayılan videolarda da olayın dini motivlə törədilməsi xüsusi ustalıqla ortaya atılmışdı. Bu baxımdan hər iki qanlı olayın eyni mərkəzdən idarə olunması qənaəti təsdiqini tapır.

İlqar Balakişiyevə hücum olarkən Səməd Abbasov "Gəncə" hotelinin qabağında olub və polis yoldaşına kömək məqsədilə gələrkən hücuma məruz qalıb, onu da xəncərlə vurublar.

**Səməd Abbasovun qardaşı Hacı Tahir Abbasov qətl haqda danışıb. Gəncə İmamzadə ziyarətgahının mütəvellisi, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov gununsesi.info-ya deyib ki, olay zamanı qardaşı Gəncə Şəhər İcra Hakimiyyətinin qarşısında yerləşən meydanda olub:** "Bu zaman 60-70 nəfərə yaxın gənc ora çıxıb. Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyevə hücum edilib. Qardaşım onu xilas edərkən qətlə yetirilib. Qardaşıma ürəyindən bir bıçaq zərbəsi vurulub".

**T.Abbasov qeyd edib ki, həmin adamlar dinlə bağlı ola bilməz:** "Onlar gələn zaman bunlar özü də çaşqın vəziyyətdə olub ki, əllərində bıçaq, dəyənək, lom olan gənclər haradan çıxdı? Gəncədə belə bir xarakter yoxdur ki, günahsız insanı belə amansızcasına qətlə yetirəsən. Bu, xüsusi təşkil olunmuşdu. Ermənistana sığınan təxribatçı, satqın adamlar var ki, internet üzərindən çağırışlar edirdilər. Burada məqsəd ara qatmaq və asayişi pozmaq idi. Heç bir zaman dini əqidəsi olan adam belə alçaqlıq eləməz, başqa bir ailənin üzvünü qətlə yetirməz. Qətl böyük günahdır. Qardaşım da iş başında şəhid olub".

**Hər iki polis zabiti iyulun 11-də torpağa tapşırılıb. Vida mərasimində daxili işlər nazirinin müavini Oruc Zalov çıxış edib.**

"Polis əməkdaşlarımız Gəncədə, ölkədə sabitliyin qorunması üçün öz andlarına sadiq qalıb, dövlətçiliyə sadiqliyini göstəriblər" - deyə nazir müavini bildirib.

**O.Zalov deyib ki, şəhid olan polislər polis şərəfini qoruyublar:** "Onlar şəhid olaraq minlərlə insana bildiriblər ki, cinayətkarlığa aman verilməyəcək. Yeri gəlsə, canımızı qurban verəcəyimizlə bağlı andımıza sadiq qalıb, sabitliyi qorumaq üçün öz canlarından keçərək şəhid olublar".

**Baş verənlərlə bağlı Azərbaycan Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə məlumatında deyilir ki, iyulun 10-da Bakı vaxtı ilə saat 20 radələrində 150-200 nəfərdən ibarət "radikal dini yönümlü bir qrup şəxs" Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi pozmağa cəhd göstərib.** "Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınıb, 40 nəfər tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilib, qalanları qaçaraq ərazini tərk ediblər. Görülmüş operativ tədbirlərlə təxminən 30 dəqiqə ərzində şəhərin mərkəzində asayiş tam bərpa edilib" - məlumatda qeyd edilir.

Birgə məlumata görə, qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti - İlqar Balakişiyev və Səməd Abbasov kəsici-deşici alətlərlə yetirilmiş zərbələr nəticəsində öldürülüb. Fakt üzrə Baş Prokurluqda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.3-cü, 120.2.7-ci, 220.1-ci, 221.3-cü və 228.4-cü maddələri ilə cinayət işi başlanılıb.

Dərhal görülmüş tədbirlərlə Gəncə şəhərində ictimai asayiş tam bərpa edilib, bütövlükdə respublikada sabitlik və təhlükəsizlik etibarlı qorunur. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə həmin qanlı cinayəti törədənməkdə şübhəli bilinən 2 nəfər - Gəncə şəhər sakinləri 1988-ci il təvəllüdlü, əvvəllər qəsdən adam öldürmə və soyğunçuluq cinayətlərinə görə məhkum olunmuş Rəşad Məmmədəli oğlu Böyükkişiyev və eyni təvəllüdlü Fərrux Xəqani oğlu Qasımov müəyyən edilib.

Musavat.com xəbər verir ki, respublikanın hüquq-mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 10-da Gəncə şəhərində baş vermiş qanunsuz aksiyanın ən fəal iştirakçılarından və xidməti vəzifələrini yerinə yetirən polis zabitlərindən birinin qətlində şübhəli bilinən Qasımov Fərrux Xəqani oğlu vətəndaşlarımızın yaxından köməkliyi ilə tutularaq istintaqa təhvil verilib.

Bu cinayətin törədilməsində şübhəli bilinən digər şəxslərin də tutulması istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

1988-ci il təvəllüdlü Fərrux Xəqani oğlu Qasımovun facebook səhifəsindəki paylaşımlarından belə məlum olur ki, ötən ilin oktyabrından sonra burada hansısa paylaşım etməyib. Səhifəsində bir qrup saqqallı tanışları ilə çay süfrəsi ətrafında foto var.

Həmin fotonun altına isə Qədir Məmmədov adlı biri yazıb ki, "sən axtarışdasan". Fotodakı dostları arasında oturmuş bir nəfərin Elmar Vəliyevi güllələyən Yunis Səfərova zahirən oxşarlığı var. Amma onun olduğunu səhih söyləmək çətindir. Bilinən odur ki, Fərrux Qasımov kriminal aləmin nümayəndəsidir. Onun qardaşı Ramin Qasımov hazırda 6 saylı islah düşərgəsində həbsdədir. 2016-cı ildə o, xuliqanlıq zəminində ağır bədən xəsarətləri yetirdiyinə görə 7 il müddətinə həbs edilib. Gələn məlumatlar birbaşa da olmasa, dolayısı ilə bu adamların eyni mərkəzdən idarə oluna biləcəkləri qənaətini formalaşdırır.

Fərrux Qasımovla bərabər axtarışa verilən Rəşad Məmmədəli oğlu Böyükkişiyevin Gəncənin icra başçısı Elmar Vəliyevə sui-qəsd etmiş Yunis Səfərovla hansısa əlaqələrinin olub-olmadığı haqda xəbər yoxdur.

**Rəşad Böyükkişiyev haqda bilinən odur ki, 19 yaşında qətl törədib və 7 il müddətinə azadlıqdan məhrum olunub. "Google" axtarış sistemində APA-nın apardığı kiçik araşdırma zamanı məlum olub ki, Rəşad Böyükkişiyev öz doğma anasını qətlə yetirdiyinə görə həbsdə olub. APA-nın 17 iyul 2007-ci ildə yaydığı xəbərdə oxuyuruq:** "Gəncə şəhərində ailə məişət münaqişəsi zəminində qətl hadisəsi törədilib. Gəncə şəhər prokurorunun köməkçisi İbrahim Həsənovun APA-nın Qərb bürosuna verdiyi məlumata görə, 19 yaşlı Rəşad Məmmədəli oğlu Böyükkişiyev öz anası bıçaqlayaraq öldürüb. 2014-ci ildə azadlığa çıxıb və Rusiya Federasiyasına gedib. Orada Yunis Səfərovla görüşüb-görüşməməsi bilinmir. O, Rusiyaya gedəndən sonra yenidən soyğunçuluq cinayəti törədib və 2015-ci ilin ortalarında həbs olunub. Soyğunçuluq əməlinə görə 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Ötən ilin ortalarında azadlığa çıxandan sonra Rəşad Böyükkişiyev Rusiyadan Azərbaycana gəlib.

Rəşad Böyükkişiyevin Rusiyadan Gəncəyə qayıtması Yunis Səfərovun Gəncədə polis əməkdaşına başından küt alətlə xəsarət yetirməklə silahını əldə etməsindən əvvələ təsadüf edir. Elmar Vəliyevə qarşı qanlı aksiyanı gerçəkləşdirən Yunis Səfərovla Rəşad Böyükkişiyevi bağlayan və hazırda üzdə olan məqam onların hər ikisinin Rusiyadan ölkəyə gəlmələridir. Mümkündür ki, bu şəxslər qanlı olaylardan əvvəl bir-biri ilə tanış olublar və ya ümumi tanışlaya olub.

Bu arada Yunis Səfərovun anası Leyla Səfərovanın Rusiya xüsusi xidmət orqanları ilə əlaqələrinə dair maraqlı bir detal üzə çıxıb. Həmin detal Elmar Vəliyevin qardaşı, Azərbaycanın hərbi prokuroru Xanlar Vəliyevin günlər əvvəl dilə gətirdiyi məlumatları təsdiqləyir: Leyla Səfərova artıq 4 ildir ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) Akademiyasının kitabxanaçısıdır. Belə bir mühüm bir posta sıradan birinin götürülməsi inandırıcı deyil. Bu baxımdan ölkənin ən məlumatlı adamlarından biri olan Xanlar Vəliyevin "Yunis Səfərovun anası Rusiya kəşfiyyatına işləyir" iddiası maraq doğurur. Bundan başqa, Yunis Səfərov qanlı olayı törədəndən sonra youtube kanalında onun xanımının səs yazısı və sonradan videosu yayıldı. Səfərovun xanımı videosunda Yunis Səfərovun qanlı olayı dini motivlərlə törətdiyini iddia edirdi. Maraqlıdır ki, video yayımlanan "Ar-rad TV" də Rusiyada qurulub, orada fəaliyyət göstərir. 2017-ci ilin fevralında youtube kanalı üzərindən əsasən rus dilində dini motivli verilişlərlə çıxış edir. Səfərovun xanımının niyə məhz Rusiyada peyda olması, oradakı "Ar-rad TV" ilə əlaqə yarada bilməsi də açıq qalan suallardandır.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

**İyulun 10-da Gəncədə baş verən və iki yüksək rütbəli polisin öldürülməsi ilə nəticələnən hadisələr ölkə ictimaiyyəti tərəfindən pislənir. Hadisələrə müxalifət partiyalarının rəhbərləri də münasibət bildiriblər.**

# Müxalifətdən dövlətə tam dəstək: "Cinayətdir və..."

## Partiya sədrləri belə düşünür ki, Gəncədə baş verən təxribatlar dövlətçiliyə təhlükədir


Pənah Hüseyn


Sərdar Cəlaloğlu


Mirmahmud Mirəlioğlu


Tural Abbaslı

**AXP sədri, sabiq baş nazir Pənah Hüseyn** musavat.com-a deyib ki, istənilən halda bu cür aksiya cinayətdir. Bu cür hərəkətlər nə dinə, nə də demokratiyaya xidmət edir. İştirakçıların kimliyindən asılı olmayaraq, aydın görünür ki, bu hadisə xarici və daxili güclərin Azərbaycana qarşı təxribatıdır.

AXP sədri şəhid olan polislərə görə təəssüf hissi keçirdiyini bildirib. Həmçinin qeyd edib ki, bununla yanaşı, günlər öncədən belə bir təxribata hazırlıq getdiyi hər kəsə məlum olduğu halda, nədən onun qarşısının alınmadığı, həmin adamların şəhərin baş meydanına necə keçə bildikləri onda təəccüb yaradır: "Bu detal xüsusi araşdırılmalıdır".

**Müsavat Partiyasının başqanı Arif Hacılı da hadisələr baş verdiyi barədə xəbər yayılandan dərhal sonra bu hadisələri pisləyən açıqlama verib:** "İki polis zabitinin qətlə yetirilməsi böyük faciədir və Azərbaycanın maraqlarına dəhşətli zərbədir. Proseslərin zorakı müstəviyə keçməsi Azərbaycan xalqının və dövlətinin ziyanınadır. Bundan ən böyük ziyan çəkən xalq və dövlət olacaq. Bu məsələ ilə bağlı yəqin ki, ciddi araşdırmalar gedəcək və bu araşdırmalardan, dəqiq məlumatlar əldə etdikdən sonra Müsavat Partiyası olaraq konkret münasibət bildirəcəyik. Ancaq indidən demək mümkündür ki, görünür, Azərbaycanda proseslərin sivil, demokartik müstəviyə deyil, zorakılıq müstəvisinə keçməsində maraqlı olan qüvvələr var. Təbii ki, bu məsələlər sürətlə araşdırılacaq".

**Müsavat başqanı deyib ki, bu proseslərin arxasında dayanan ciddi qüvvələr var:** "Xüsusilə iki yüksək vəzifəli zabitin öldürülməsi ciddi hadisədir və bundan ciddi nəticə çıxarılmalıdır. Bu cür proseslərin inkişafına yol vermək olmaz. Siyasi qüvvələr də ölkədə konstitusiya və qanunlardan kənar proseslərin getməsinə imkan verməməlidir. Biz də buna çalışacağıq. Amma əsas rol yenə də hakimiyyətin üzərindədir".

**AMİP-in baş katibi Arzuxan Əlizadə isə bildirdi ki, Gəncədə baş verən hadisələrin arxasında dini cərəyanların dayandığına inanmır:** "Olayların arxasında dini amili qabartmaqla diqqəti özündən yayındırmağa çalışan daha ciddi qüvvələrin olduğu qənaətindəyəm. Əminəm ki, hüquq-mühafizə orqanlarının araşdırmaları hadisələrin arxasında dayanan əsas oyunçuları meydana çıxaracaq. İstənilən halda öz vəzifə borcunu yerinə yetirən polis zabitlərinin qətlə yetirilməsi dövlətimizin dayaqlarını sarsıtmağa yönəlmiş cəhd kimi qiymətləndirilməlidir. Şəhid olan polislərimizə Allahdan rəhmət diləyir, ailə üzvlərinə və yaxınlarına başınız sağ olsun deyirəm! Bu günlərdə siyasi mövqeyindən asılı olmayaraq hər kəsi hadisələri düzgün qiymətləndirərək obyektiv mövqe bildirməyə və dövlətimizin yanında olmağa çağırıram. Azərbaycan dövlətçiliyini qorumaq hər birimizin şərəfli borcudur".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə bildirdi ki, Gəncədə həyata keçirilən hadisə cinayətdir və bu cinayəti törədənlər aşağıdan yuxarıya qədər hamısı aşkara çıxarılmalı, cəzalarını çəkməlidirlər:** "Bu hadisəyə diqqət etdikdə ortaya çoxlu suallar çıxır. Sanki bir güclü əl bu cür hadisələrin baş verməsini istəyir. Təşkilatçısı dəqiq bəlli olmayan aksiyaya şərait yaradılmamalı idi. İnsanlar o meydana buraxılmamalı idilər. Bu hadisələr bütövlükdə tərəfimizdən pislənilir".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, məmur-vətəndaş münasibətlərində hər hansı bir zorakılığın edilməsi qətiyyətlə pislənməlidir. Bu, həm dövlətimiz, həm cəmiyyətimiz üçün, həm də bu prosesdə iştirak edən insanlar üçün çox ağır nəticələrə gətirib çıxara bilər:** "Amma bu gün bizi daha bir məsələ maraqlandırılmalıdır, nəyə görə Gəncədə bu hadisələr baş verdi və nə üçün Elmar Vəliyevin həyatına sui-qəsd olunandan sonra bu hadisələr gücləndi? Yerlərdə məmurların vətəndaşlara qarşı tam özbaşına rəftar eləməsinin qarşısı təcili alınmalıdır. Yerli məmurlar, bir sıra icra başçıları faktiki olaraq dövlətçilik, sabitlik üçün təhlükə mənbəyinə çevriliblər. Yerlərdə insanların hörmət etdiyi məmurlar olanda bu tipli hadisələrin baş verməsi ehtimalı da azalır, baş verəndə isə itkisiz ötüşür. Mən Gəncədə baş verən hadisələri qətiyyətlə pisləsəm də, dövlətçilik tələb edir ki, bu hadisənin yaranmasının səbəbləri də araşdırılsın".

**VİP sədri Əli Əliyev isə qeyd etdi ki, Gəncə hadisələrini iki hissəyə bölmək lazımdır. Hər iki hissənin üzvü bağlılığı vardır. Birinci hissəsi 3 iyul tarixində Gəncə şəhər İcra başçısı Elmar Vəliyevə olan sui-qəsd cəhdi idi. Bu hadisədən sonra baş verənləri Gəncə hadisələrinin ikinci hissəsinə aid etmək lazımdır:** "Həmin gündən sosial şəbəkələrdə 10 iyul tarixdə Gəncə şəhərində etirazın olacağı barədə məlumatlar dolaşırdı. Dünən isə Gəncədə heç arzulamadığım hadisə baş verdi. Həm insanların xaotik şəkildə küçələrə çıxması, həm polis zabitlərinin qətli, həm də nümayişə cəhd edənlərin həbsi ziyanımızadır. Qətlə yetirilən polis zabitlərimizin də yaxşılardan olmalarına inanıram. Çünki onların Gəncə sakini olması, camaatla gətirilmiş qüvvələr arasında bufer, maneə olma cəhdləri, itkidən yayınmaq üçün önə çıxmaları müsbət məqsəli olmalarını göstərir. Allah rəhmət eləsin hər ikisinə. Nümayişçilərin də içərisində günahkarlarla yanaşı təsadüfi, günahsız şəxslərin olması qənaətindəyəm.

Təklif edirəm ki, Gəncədə baş vermiş hadisələrin tədqiqi üçün yeni komissiya yaradılsın. Bu komissiyaya rəsmi qurumların nümayəndələri ilə yanaşı ictimai-siyasi sektoru əhatə edən insanlar da dəvət olunsunlar. Özümün də belə komissiyada olmaq üçün namizədliyimi irəli sürür, tərəfsiz fəaliyyət göstərəcəyim öhdəliyimi bildirirəm".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, son günlər Gəncədə baş verən hadisələr AĞ Partiya olaraq onları narahat edir:** "Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə sui-qəsdlə başlayan, iki polis zabitinin qətlə yetirilməsi ilə davam edən gərginlik ictimaiyyətdə də narahatlıq yaradıb. Biz istənilən halda hər cür zorakılığın, şiddətin və qətl hadisəsinin əleyhinəyik. Səbəb nə olursa-olsun şiddət, qarşıdurma çıxış yolu deyil. Belə vəziyyətlərdə hər kəs öz üzərinə düşən məsuliyyəti dərk etməli və hadisələrə bu rakursdan yanaşmalıdır. Azərbaycanı qarışdırmaq, qanunları ayaq altına atmağa çalışanlara isə qanunun dili ilə ən sərt şəkildə davranılmalıdır. Bu proseslər barədə öz cavabını gözləyən xeyli suallar var. Əvvəlcə bu suallara cavablar tapılmalıdır. Mən ümid edirəm ki, hakimiyyət ölkədə sabitliyə və əmin-amanlığa cavabdeh olan bir siyasi qüvvə kimi yanaşaraq ciddi tədbirlər görəcək. Təklif edirəm ki, siyasi-ictimai sektorun bütün tərəflərini əhatə edən geniş tərkibli bir komissiya yaradılsın. Həmin komissiyanın hazırladığı hesabat hadisələrdə məsuliyyəti olan hər kəsi hüquqi məsuliyyətə cəlb etmək üçün əlavə material ola bilər. Mən bir partiya sədri kimi, Gəncə əhalisinə, həm də bütün xalqımıza müraciət edərək daha soyuqqanlı olmağa, heç bir provokasiyaya uymamağa, aralıqda gəzən şayiələrə reaksiya verməməyə çağırıram. Unutmayaq ki, kortəbii və ya düşünülmüş şəkildə təşkil olunmuş qarşıdurmalar dövlətçiliyimizə, sabitliyimizə bərpaolunmaz zərbələr vura bilər".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Gəncə dərsi, yaxud ən böyük sərvətimiz



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İkinci böyük şəhərimiz Gəncədə qısa zaman sonra yaşanan növbəti, bu dəfə 2 polis zabitinin qətli ilə bitən faciəvi olay hər şeydən öncə milli təhlükəsizlik məsələmizi önə çıxardı. 27 yaşlı gənc Azərbaycan dövləti üçün növbəti dayanıqlıq testi oldu. Eyni zamanda ümumən cəmiyyət, hakimiyyət və siyasi müxalifət üçün ciddi sınaq oldu.**

Nə yaxşı ki, toplum olaraq, iqtidarlı-müxalifətli (qanuni) testdən çıxa bildik. Azərbaycan dövlətinin əsas yaşam şərti, formulu da elə budur - fors-major vəziyyətdə çəkici eyni zindana vurmaq. Fərdi, qrup maraqları naminə kəmfürsətlik etməmək, "xaric oxumamaq", xarici məkrli çevrələrin əlində heç bir halda tutarqaya çevrilməmək.

Doğru, bu sınaqdan çıxmayanlar var. Vicdanlı və ya vicdansız şəkildə yanılanlar, "5 qəpiyə" görə milli maraqları satmağa hazır olanlar, manqurt qafalılar içimizdə həmişə olub, olacaq da. Buna təəccüblənmirik. Meşə çaqqalsız olmaz ki.

Bu da var ki, 98 il öncə İslam Şərqində qurulan, Gəncədən bəyan edilən ilk demokratik cümhuriyyətimizin - ADR-in süqutunda onların müstəsna xidməti olub. Əsas odur ki, bu ünsürlər həmişə azlıqda qalsın, azlıqda saxlanılsın, çoxluğa öz iradəsini diktə edə, onun "saqqızını" oğurlaya bilməsin.

Buna görə əsas məsuliyyət bişəkk ki, hakimiyyətin, ölkə sükanı arxasında duranların, hakimiyyətin yerlərdəki rəsmi təmsilçilərinin üzərinə düşür. Çünki güc, silah, təbliğat və inzibati resurslar hakimiyyətin əlindədir. İctimai etimadın və rəyin hansı səviyyədə olması da onlardan asılıdır. Amma bu resurslardan əndazəsində istifadə eləmək məsələsi var.

Bir də təbii ki, peşəkarlıq, peşəkarlıq, peşəkarlıq... Tibbi dildə və obrazlı desək, makroorqanizmə rahatsızlıq verən "irini" bədəndən gərək elə çıxarasan ki, sağlam toxumalar ziyan görməsin. Bu isə cərrahın savadı və təcrübəsinə bağlı məsələdir. Burada diletantlıq, eksperiment keçməz və ağır fəsadlara gətirər...

Gəncədəki dünənki olay haqda kifayət qədər şərhlər verilib. Onu da unutmayaq ki, Gəncə Qarabağ münaqişəsi zonasına ən yaxın olan ən iri şəhərimizdir. Çox şey deyilib bununla. Yeri gəlmişkən, bundan ikicə gün qabaq tanınmış politoloq Eldar Namazov qəzetimizə müsahibəsində demişdi ki, Azərbaycan ətrafında çox ciddi proseslər gedir. Sözü ağzında qaldı sanki Eldar bəyin...

İndi hamı Azərbaycandakı sabitliyin dəyərinə bir daha əmin oldu. Hər şey də məhz elə ondan - sabitlikdən başlamırmı? Gəncə dərsi bəs elədimi, yoxsa yenə mütləq nəsə olmalıdır?..

Bişəkk, bu dövlətin, xalqın yaxşısı da bizimdir, pisi də. Yaxşıya yiyə durduğumuz kimi, pisə sahiblənməkdən də yaxamızı kənara çəkə bilmərik. Mümkün deyil. Pisi islah eləmək isə dövlətlə yanaşı, cəmiyyətin görəvidir. Eyni zamanda siyasi rəqib düşərgəsində olsalar belə, yaxşıların - millətinə, dövlətinə sadiq insanların qədrini bilib, haqqını vermək gərəkir.

İş də ondadır ki, müasir dövlətin gücü onun neft-qaz ehtiyatları ilə ölçülməz. İntellektual, bacarıqlı, millətinə sadiq, işıqlı insanlarının cəmi ilə müəyyən olunar. Venesuela, Nigeriya böyük neft ehtiyatlarına malikdir və neft ixracatçılarıdır. Fəqət, əhlisi ağır gündə yaşayır. Deməli, əhalisi xarici mərkəzlərin valyutasına daha həssasdır. Amma nefti olmayan İsrail nümunəsi də var.

Sözü ona gətiririk ki, dövlətin ən böyük, əvəzsiz sərvəti dar gündə bu dövlətə və millətə nankorluq etməyən, əksinə, ona sədaqətli olan insanlarıdır - siyasi baxışı və əqidəsindən, dinindən və etiqadından asılı olmayaraq.

Onların qədrini bilək, onları qoruyaq. Zira, Gəncə "üsyanı"nın fiasko olmasına görə öncəliklə bu insanlara borcluyuq. Məhz onlara görə "qiyam" qat-qat fəlakətli sonluqla bitmək üçün özünə siyasi və ideoloji zəmin tapa bilmədi...

Allah Azərbaycanımızı qorusun!

# Gəncəyə 8 il rəhbərlik etmiş icra başçısı "Yeni Müsavat"a danışdı

## Eldar Əzizov: "O vaxt təsəvvür edə bilməzdim ki, Gəncədə belə bir hadisə baş verə bilər"



## "Abbas Abbasovla heç vaxt işgüzar ünsiyyətdə olmamışam"

**Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə baş verən qanlı hadisələr hər kəsi narahat edib. Hadisələrin haradan, nədən qaynaqlandığı, hansı mərkəzlərdən idarə olunduğu barədə ən müxtəlif versiyalar səslənir. "Yeni Müsavat" olaraq 2003-2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyən, hazırda isə Bakı şəhər Səbayel Rayon İcra Hakimiyyətinin başçısı postunu tutan Eldar Əzizovdan baş verənlərə münasibət bildirməsini xahiş etdik. Fürsətdən istifadə edib icra başçısına digər suallarımızı da ünvanladıq.**

***- Eldar müəllim, sizin uzun müddət rəhbərlik etdiyiniz Gəncə şəhərində faciəli hadisələr, ağır cinayətlər baş verdi. Baş verənlərlə bağlı sizin məlumatlarınız, ehtimallarınız nədən ibarətdir?***

- Mən 8 il Gəncədə işləmişəm. Təəssüf hissi ilə deməliyəm ki, bunlar çox ağır hadisələrdir. Mən həlak olan polkovnikləri şəxsən tanıyırdım. Səməd Abbasovu da, İlqar Balakişiyevi də. Biz onlarla bir yerdə, çiyin-çiyinə işləmişik. İkisi də layiqli, mübariz zabitlər olublar. Heyf onlardan! Mən fürsətdən istifadə edib onların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Onlar dövlətə və dövlətçiliyə sadiq, mübariz zabitlər olublar. Xidmətdə olan zabitlərin belə qətlə yetirilməsini əlbəttə ki, hər bir vətənpərvər insan pisləyir. Bu gün biz hamımız dərk etməliyik ki, əzəli, təbii düşmənlə üz-üzə dayanmışıq, torpaqlarımızın da bir hissəsi işğal altındadır. Başqa qüvvələr də vardır. Onlar bu cür vəziyyətlərdən istifadə etməyə çalışacaqlar. Təəssüf hissi ilə etiraf etməliyik ki, bu gün bizim özümüzdən başqa güclü, müstəqil Azərbaycan heç kimə lazım deyil. Hazırda dünyada gedən mürəkkəb proseslərə baxmayaraq, Azərbaycanda sabitlikdir, ölkə inkişafdadır. Bu, özü-özünə alınmayıb. Cənab İlham Əliyevin siyasətinin nəticəsidir. Mövcud sabitliyi qoruyub-saxlamaq vacib bir məsələdir. Biz səylərimizi buna istiqamətləndirməliyik. Yeri gəlmişkən, bu gün bəzi adamlar mətbuatda olmayan məsələləri şişirtmək istəyirlər. Mən özüm bu gün tamam başqa bir şəhərdə, başqa bir rayonda işləyirəm. Amma mənim adımdan müxtəlif şayiələr yayırlar. Məndən müsahibə götürmədən hadisələrə "münasibətimi" bildirirlər. Elə çıxır ki, sən heç müsahibə verməsən də, sənin adından ictimaiyyətə nə isə təqdim olunacaq. Amma mən bu günə kimi rəsmi müsahibə verməmişəm. Bunu sizə rəsmi şəkildə deyirəm. Sizdə, musavat.com-da bir məqalə gedib ki, guya Abbas Abbasovla bizim birgə işlərimiz olub və onun dəstəyi ilə mən icra hakimiyyətinin başçısı təyin olunmuşam. Mən ulu öndər tərəfindən Gəncə şəhərinə icra başçısı vəzifəsinə təyin olunmuşam və bununla fəxr edirəm. Nə mən bir dəfə Abbas Abbasovun otağında olmamışam, nə də o mənim otağımda olmayıb. Gəncədən qabaq və Gəncədə işlədiyim 8 il ərzində biz bir dəfə də olsun nə Nazirlər Kabinetində, nə də Gəncə Şəhər İcra Hakimiyyətində görüşməmişik. Bütün bunları hansı məqsədlə primitiv şəkildə yazılıb. Ölüm hökmü Azərbaycanda 1998-ci ildə ləğv olunub və mən bir tarixçi kimi bunu yaxşı bilirəm. Amma bu saxta məlumatı hazırlayanların yəqin ki, bundan xəbəri olmayıb. "Azadlıq" qəzeti bu məlumatı fasebokda yayıb və geniş müzakirələr təşkil edib. Məqsədi də bəllidir. Mən bu günlər ərzində ilk müsahibəni bu gün telefonla yalnız sizə vermişəm, o da sizin zəngə cavab olaraq. Bu günə kimi mənim adımdan yazırlar, mən deyə bilmərəm. Kiminsə fantaziyası bu qədər zəngindir ki, olmayan şeyləri bu şəkildə reallaşdırmağa çalışır. Amma mən xatırlaya bilmirəm ki, işlədiyim dövrdə onlar Gəncədə nə isə tiksinlər, hansısa obyekt açsınlar. Amma mənim işlədiyim dövrdə Gəncə şəhərində belə fəaliyyətlə məşğul olmaları da mən bu günə qədər xatırlaya bilmərəm. Abbas Abbasovla heç vaxt işgüzar ünsiyyətdə olmamışam. Mən özüm elə yazıları oxuyanda təəccüblənirəm. Ümumiyyətlə, özüm Azərbaycan Jurnalistlər Birliyinin üzvü kimi arzulayardım ki, heç olmasa kiminsə haqqında nə isə yazılanda etika naminə müraciət etsinlər, soruşsunlar, xəbər doğrudur, ya yox.

***- Bir neçə gün əvvəl sosial şəbəkələrdə məlumat yayılmışdı ki, siz Gəncə şəhərində bu hadisəni törədən insanın edam edilməsini tələb etmisiniz...***

- Siz bunu nə qədər demokratik hesab edirsiniz? Mənə heç kim bu barədə müraciət etməyib və heç kimə müsahibə verməmişəm, bu yalan məlumatın müəllifi də mənə məlum deyil. Mən bunu eşidəndə çox təəccübləndim və bu müsahibə ilə tanış olandan sonra deyə bilərəm ki, bu çox ylan xəbərlər cəfəngiyyatdan başqa bir şey deyil.

***- Eldar müəllim, Siz də təsdiq edə bilərsiniz ki, bəzən mətbuata məqsədli şəkildə dezinformasiyalar da ötürülür, bunu istisna etmirik. Üstəlik, adətən məmurlara çıxış imkanı məhdud olduğundan dəqiqləşdirmə aparmaq da müşkülə dönür. Yeri gəlmişkən, həmin yazıda bir məqam da var ki, Abbasovlara məxsus 1,5 milyonluq özəl mülk Elmar Vəliyev 2011-ci ildə Sizi əvəzlədikdən az sonra yerlə yeksan edilib. Bu barədə nə deyə bilərsiniz?***

- Mən xatırlaya bilmərəm. Çünki onlarla işgüzar ünsiyyətdə olmamışam. Düzdür, bizim dövrümüzdə Abbas Abbasovun oğlu (**Aydın Abbasov-E.P.**) Gəncə şəhərindən deputat seçilmişdi. Dörd deputatdan biri də o idi. Bu isə başqa bir mövzudur. Lakin deyim ki, mənim bunlarla, hansısa məsələlərlə bağlı müzakirələrim olmayıb. Onların Gəncədə bəzi obyektləri olub və bunlar mənim Gəncəyə rəhbərlik etdiyim dövrdən əvvəl olmuşdu. Yəqin ki, onlardan söhbət gedə bilər.

***- Hər halda, bu gün hər birimizi daha çox narahat edən məhz Gəncədə baş verən qanlı hadisələrdir və istərdim ki, bu məsələlərdən danışaq. Siz Gəncədəki hadisələrin arxasında hansı qüvvələrin dayandığı qənaətindəsiniz? Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin əhalisini yəqin ki, yaxşı tanıyırsınız. Burada dini amillərin icra başçısına sui-qəsd etməsinə, polis zabitlərini qətlə yetirməyə gətirib çıxarması real görünürmü?***

- Mən həmişə demişəm, bu gün də deyirəm, gəncəlilər çox qədirbilən camaatdır. İnanmıram ki, gəncəlilər tərəfindən Balakişiyevə və Abbasova kimsə əl qaldıra bilərdi. Ola bilər ki, hansısa təxribatçı qruplardır. Bu gün istintaq gedir və yəqin ki, istintaqın nəticəsi açıqlanacaq. Mən bir tarixçi kimi burada daha geniş problem görürəm. Hər halda, istintaq daha konkret deyəcək.

***- Rəis müavinlərinin hədəfə alınması, sizcə, təsadüfdür, yoxsa məqsədli olub?***

- Mən 7 ildir Gəncədən çıxmışam. Bu gün birmənalı desəm, ciddi qəbul olunmayacaq. Hər halda, bu, yaxşı hal deyil, cinayətdir. Xidmət zamanı zabitləri qətlə yetiriblər. Biz birmənalı şəkildə bunu pisləyirik. Ancaq başqa nələr baş verib, bunu yalnız orada olanlar qiymətləndirə bilər. Mən yalnız vətəndaş kimi bunu çox pis qiymətləndirirəm. Bu, qətldir. Qətlə yetirilənlər dövlət işçiləridir, Azərbaycan dövlətini təmsil edən yüksək rütbəli zabitlərdir. Onlara qarşı əl qaldırılması Azərbaycan dövlətçiliyinə qarşı əl qaldırılması kimi qəbul olunmalıdır və bütün dünyada bu cür hadisələr belə qiymətləndirilir.

***- Eldar müəllim, dediyiniz kimi, Siz 8 il Gəncəyə rəhbərlik etmisiniz. Heç təsəvvürünüzə gətirərdinizmi ki, günün birində kimsə elə icra hakimiyyətinin qarşısında Sizə yaxınlaşa və silahlı hücum edə bilər? Nə vaxtsa belə bir təhlükədən ehtiyatlanmısınızmı?***

- Bilirsiniz, burada bəzi qüvvələr bizi üz-üzə qoymaq, müqayisə etmək istəyirlər. Bu, etik cəhətdən düzgün deyil. Mən başqa bir dövrdə işləmişəm, o, (Elmar Vəliyev-E.P.) başqa bir dövrdə. O vaxt təsəvvür edə bilməzdim ki, Gəncədə belə bir hadisə baş verə bilər. İndi dünya dəyişir, müxtəlif xarakterli proseslər gedir. "Bu gün orada niyə belə oldu" sualına müvafiq təşkilatlar, istintaq aydınlıq gətirəcək. Ancaq birmənalı şəkildə bu nə hadisədir, kökündə nə dayanır, demək çətindir. İstintaqın yekununu gözləyək.

***- Bu günlər ərzində həmkarınız, həm də xələfiniz olan Elmar Vəliyevlə əlaqə saxlamaq, onun sağlıq durumundan məlumat almaq imkanınız olubmu?***

- Mənim onun qardaşı Xanlar Vəliyevlə telefon danışığım olub. Təbii ki, o, bizim həmkarımızdır. Mən Gəncədə 8 il işlədim, o da 7 il işləyib, artıq 8-ci ildir. Əlbəttə, biz bir komandanın üzvüyük. Təbiidir ki, mən son hadisələri pisləyirəm. Azərbaycanda hüquqi dövlət var, kim kimdənsə narazıdırsa, o, sözünü deyə, hansısa instansiyaya müraciət edə bilər.

***- Yəqin ki, Gəncə ilə əlaqələriniz var. Hazırda vəziyyət barədə nə demək olar? Bundan sonra analoji hadisələr təkrarlana bilərmi?***

- Mən inanmıram ki, bir daha belə bir hadisə təkrar olunsun. Gəncə camaatı müdrik camaatdır. Bu gün Azərbaycan xalqı dünyaya baxıb min dəfə şükür edir ki, Azərbaycanda sabitlikdir, inkişaf var, bunu qoruyub saxlamaq lazımdır. Bu sabitlik və inkişaf cənab prezidentin siyasətinin nəticəsidir. Böyük xoşbəxtlikdir ki, bu gün ölkənin başında bu cür dahi insan durur, onun siyasətinin nəticəsində bu sabitlik yaranıb və inkişaf göz qabağındadır. Yaxın Şərqə, Avropaya, Ukraynaya baxın, nələr baş verir? Azərbaycan onların fonunda stabil dövlət kimi çıxış edir, bunu qoruyub-saxlamaq lazımdır. Azərbaycan xalqı da müdrik xalqdır. Bütün görülən işləri qiymətləndirir. Ona görə də mən inanmıram ki, orada böyük bir miqyasda nə isə problem yaradılsın. Ayrı-ayrı adamlar bütün dünyada var, bütün quruluşlarda mövcud olublar.

***- Eldar müəllim, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsi neçə vaxtdır ki, boşdur. Son olayla əlaqədar Gəncənin icra başçısı da səlahiyyətlərini icra edə bilmir. Ölkə əhalisinin az qala yarısını təşkil edən iki şəhərimizdəki belə bir vəziyyət Sizi narahat edirmi?***

- Bakı şəhərində sistem yaradılıb, bütün rayon icra hakimiyyətinin başçıları yerlərində öz funksional vəzifələrinin öhdəsindən gəlirlər. Gəncə şəhərində bu cür faciəli hadisə baş verməsinə baxmayaraq orada dövlət strukturları öz fəaliyyətlərini davam etdirirlər. Azərbaycanın xoşbəxtliyi ondadır ki, möhtərəm prezidentimizin siyasəti nəticəsində sistem yaradılıb. Artıq o sistem əsasında dövlət idarə olunur. Bu gün hüquqi, demokratik, dünyəvi dövlət bir reallıqdır, bu dövlət də göz qabağındadır. Ona görə də bu gün ayrı-ayrı vəzifələrdə vakansiya olanda sistem özü işləyir, artıq sistem mövcuddur, bu da bir xoşbəxtlikdir.

***- Uzun illər boyu Bakının icra başçısı vəzifəsinə namizədlər sırasında sizin də adınız çəkilib, ona görə sizdən soruşdum...***

- Vallah, çox şey deyə bilərlər, bunlar əsassız fərziyyələrdir. Mənə cənab prezident böyük etimad göstərib, mən can-başla çalışıram ki, onun etimadını əməli işlərimlə doğruldum.

**Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

**Bir müddət əvvəl əməliyyat olunan deputat, İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yevda Abramovun səhhəti normaldır və o, Bakıda istirahət edir. Bu barədə millət vəkili "Yeni Müsavat"a müsahibəsində bildirdi. Adətən səs-küylü müsahibələri ilə ictimai rəyi özünə cəlb edən Yevda müəllimin xeyli müddətdir mətbuatdan kənarda qalması barədə sualımızın cavabında zarafatyana "Hər aşığın bir dövranı var" deyərək cavab verdi. Amma bəziləri kimi Gəncə və Mingəçevir olaylarına da münasibətini açıqlamaqdan imtina etmədi:**

# Yevda Abramovdan Elmar Vəliyevə və Mingəçevir olaylarına dair ilginc açıqlama

## "Bu hadisələrin dalbadal baş verməsi təsadüf də ola bilər, birbaşa düşünülmüş akt da"



"Rambamda mənim çox yaxın dostlarım var, amma onlardan heç biri mənə deməyib ki, sizin məmur buraya gətirilib"

- Bu hadisələr hər birimizdə narahatlıq doğurur. Bunlar gözlənilməz hadisələrdir. Gəncə Azərbaycanın böyük şəhəridir. Hamımızdan çox ölkə başçısı narahatdır.

***- Yevda müəllim, Gəncə sui-qəsdi ilə bağlı çoxsaylı versiyalar səslənir. Gəncə hadisəsindən bəhs olunarkən daha çox xarici faktordan danışılır. Artıq istintaq da bu amilin üzərində işləyir. Sizin bununla bağlı məlumatınız, şərhiniz necədir?***

- Mən hələlik konkret heç nə deyə bilmərəm. Ən dəqiq məlumatları istintaq orqanları verə bilər. Kim nə deyir-desin, biz istintaqa güvənməli, istintaqa istinad etməliyik. Çünki belə hadisələrlə zarafat etmək olmaz. Verilən hər bir yanlış məlumat insanların qəlbinə toxuna bilər, bumeranq effekti verə bilər. Ona görə də gözləmək lazımdır. Belə hadisələr bütün ölkələrdə baş verir. Amma baş verənləri təmkinlə qarşılamaq lazımdır. Burada ucuzluğa gedənlər var. Tələsik öz məqaləsini çap etmək istəyən, sensasiya yaratmaq istəyən jurnalist var. Görürsən heç oxunan qəzet deyil, lakin elə bir məqalə yazır ki, oxunaqlı olur. Bu yolla getmək lazım deyil. Bilirəm ki, siz çox təcrübəli jurnalistsiniz. İstintaq orqanları araşdıracaqlar, şübhəli şəxslər dindiriləcək. Gündəlik rəsmi məlumatlar verilir, kim tutulub, nə üçün tutulub, bütün bunlarla bağlı açıqlama yayılır. Ona görə də tələsmək lazım deyil. Vaxtilə Qubada da buna oxşar hadisə baş vermişdi. O zaman deyirdilər ki, əşi, oturmusan Bakıda, Qubadan xəbərin yoxdur. Deyirəm, ay bədbəxt, mən bu hadisənin ilk günlərində başçıya da, xalqa da yalvarmışdım. Deyiləsi sözlər çoxdur. Jurnalistlər elə bilirlər ki, biz heç nə bilmirik. Biz çox şey bilirik. Amma məsələ bundan ibarətdir ki, məlumatlar tam yoxlanılmalıdır. Lakin bunu yoxlamaq üçün deputat heç nə edə bilmir. Bu, konkret istintaq orqanında işləyən adama tapşırılır və o məlumatlar deputatdan yox, ondan alınmalıdır.

***- Yevda müəllim, Quba rayonunda "Quba Palace Hotel"də kanat yolunun qırılması nəticəsində bir nəfər dünyasını dəyişdi, yaralananlar var. Bəs bu hadisə haqda nə demək olar?***

- Biri mənə zəng edib ki, Yevda müəllim, ola bilərmi ki, filankəsin oğlu mehmanxana tikəndə kanatlarda bir hiylə işlədib? Bu axmaq sualdır. Mən kanatda hiyləni haradan bilirəm? Sən istəyirsən ki, 2-3 manat pul qazanasan, məni filankəsin oğlu ilə üz-üzə qoyursan. Özü də o, bu gün respublikada dəbdə olan adam deyil. Nəyə lazımdır belə şeylər? Bir sifətlə doğulmuşuq, bir sifətlə də qəbirə getməliyik. Nəyə lazımdır? Hadisədir olub. Olmayaydı gərək. Faciədir, adam ölüb. İndi səbəbi nədir, bunu mütəxəssislər araşdırar, deyər. Terrordur, terror deyil, ya şəxsi qərəzlikdir, kiminsə başqası ilə haqq-hesabı olub, ya olmayıb, mən haradan bilim?

***- Qubanın icra başçısı baş verən olaydan xəbərsiz kimi danışmışdı. Siz necə, kanat faciəsi ilə əlaqədar yaxından maraqlandınızmı?***

- Əlbəttə. Mən kənd bələdiyyəsi, icra nümayəndəsi ilə əlaqə saxladım. Rəhmətə gedən oğlanın kəndi mənim ərazimə daxildir. İndi mövsümdür, turist doludur, oradakı uşaqlar da 15-20 manata işləyirlər. Görüblər ki, qonaqlar çıxıb, kanatın "tros"u boşdur, çıxıblar ora, hadisədir də, olub. İndi nədən olub, necə olub, ya pas atıb, bunu mən dəqiq deyə bilmərəm. Bu barədə mənim dilimdən hansısa fikri alıb yazmağa nə ehtiyac var?

***- Yəni bütün versiyalar araşdırılmalıdır, terror versiyasından tutmuş, digərlərinə qədər...***

- Bəli, hər şey araşdırılmalıdır və möhürlə, arayışla yekun rəy təqdim olunandan sonra mətbuat da istifadə edə bilər. Hər şey ola bilər. Səbəbsiz heç nə baş vermir. Səbəb var. Məsələn, hadisə baş verən mehmanxana çox "bərkgedən" mehmanxanadır. Mən bir ay yarım bundan qabaq zəng etdim ki, İsraildə çox məşhur professor var, imkan yaradın, o gəlsin bura. Dedilər, Yevda müəllim, oktyabrın 1-dək heç nə istəməyin. Təsəvvür edin, doludur. Deyirlər ərəblər götürüblər oraları. Bəlkə elə naxələfin biri turizmin bu gözəl kefini pozmaq istəyib, nə biləsən? Amma mən bu faktı dəqiq araşdırmamışam, necə deyim? Odur ki, bütün versiyaların üzərində mütəxəssislər işləməlidir.

***- Dediniz deputatlar çox şey bilir. Mingəçevir qəzası barədə nə bilirsiniz?***

- Mən nə bilirəmsə, müşavirələrdən, mətbuatdan bilirəm.

***- Gəncə sui-qəsdi və "Azərenerji"də baş verən hadisələr arasında rabitə olduğu iddiası barədə nə deyə bilərsiniz?***

- Bu, təsadüf də ola bilər, birbaşa düşünülmüş akt da. O da mümkündür ki, daxildə gərginlik yaratsınlar. Özü də Gəncə zonası elə də asan zona deyil. Gəncə bizim böyük şəhərdir. Həmçinin Azərbaycançılıq ənənələri olan şəhərimizdir. Dövlətçilik ənənələrimiz oradan başlayıb. Demokratik dövlətimizin rüşeymləri orada yaranıb. Mənə əvvəllər sual verirdilər ki, İsrail dövləti öz vətəndaşlarına "Azərbaycana getməyin" çağırışını edir, bu, nə olan şeydir, axı bizim ölkədə sabitlikdir? Deyirdim ki, niyə inciyirsiniz? Nə qədər sabitlik olsa da, heç kəs, heç bir ölkə fors-majorlardan tam sığortalanmayıb.

***- İcra başçısı Elmar Vəliyevin müalicə üçün İsrailə aparıldığı barədə xəbər yayılıb. Hətta deputat həmkarınız Fazil Mustafa da bu barədə danışıb. Sizdəki məlumatlar nədən ibarətdir?***

- Fazil Mustafa mənim gözəl qardaşımdır, çox məlumatlı deputatdır. Əgər Elmar Vəliyev İsraildə olsaydı, bəlkə də birinci eşidənlərdən biri mən olardım. Amma nə ailə üzvlərimdən, nə uşaqlarımdam, nə dostlarımdan bu barədə nəsə deməyiblər. Mənim orada yüzlərlə dostlarım var, özüm orada yatmışam, gəlib mənə baş çəkiblər. Hər bir klinikada Qubadan, Bakıdan adam var. Çox məşhur adam olmasa da, tibb işçisi var, mənə zəng edərdilər ki, sizin bir məmurunuz bizdə müalicə olunur. Heç birindən zəng gəlməyib. Mənim özümün də xəstəxanaların bir neçəsi ilə daimi əlaqəm var.

***- Konkret olaraq Haifa şəhərindəki Rambam klinikasının adı çəkilir...***

- Dünən sabiq deputatlardan biri mənə zəng etmişdi ki, bir qohumumu Rambama aparmaq istəyirəm. O da ağır vəziyyətdədir, Allah ona da şəfa versin! Rambamda da mənim çox yaxın dostlarım var, amma onlardan heç biri mənə deməyib ki, sizin məmur buraya gətirilib.

❑ **Elşad PAŞASOY,**
**Musavat.com**

# Elmar Vəliyevin hədəf seçilməsinin səbəbi...

## Elxan Şahinoğlu:

## "Azərbaycana qarşı olan qüvvələr zəif nöqtələrimizi araşdırıb təhlil edirlər, oradan da vururlar"



**İyulun 10-da Gəncə şəhərində bir qrup radikal dini yönümlü şəxslər iğtişaş törətməyə çalışdılar. Ekspertlərin fikrincə, əslində bu şəxslər dindarların, şiələrin adından istifadə edən, xarici qüvvələrin dəstəklədiyi təxribatçılardır.**

Prosesləri öncədən planlaşdırılmış hal kimi qiymətləndirən ekspertlər hesab edirlər ki, əslində Gəncənin icra başçısı Elmar Vəliyevə qarşı sui-qəsd də ümumi planın bir parçası olub. Elmar Vəliyevin fəaliyyətindən gəncəlilərin bir qisminin narazı olduğunu yaxşı bilən hadisənin təşkilatçıları, bu üsulla ictimaiyyətin dəstəyini qazanmağa çalışıblar. Beləliklə də Azərbaycana qarşı Elmar Vəliyevin sui-qəsdi ilə başlayan məkrli addımlar atılıb.

"Yeni Müsavat"a danışan **politoloq Elxan Şahinoğlu** məsələ ilə bağlı bir sıra faktlara diqqət çəkib. Politoloq bildirib ki, doğrudan da baş verən hadisələri heç də təsadüf saymaq olmaz: "Mingəçevirdə qəza baş verir və bir gün sonra Gəncə şəhər icra başçısına sui-qəsd olur. Halbuki illərdir Azərbaycanda belə hadisələr baş vermirdi. Bütün bunların ardınca da bəzi şəxslər icazəsiz aksiyaya çıxdılar, iki polisi qətlə yetirdilər. İcra başçısına qarşı sui-qəsd həyata keçirən şəxs həm azərbaycanlıdır, həm Rusiya vətəndaşıdır, həm də dini radikal qrupa bağlıdır. Bu qədər təsadüfün olması məndə ciddi suallar doğurur. Hansısa mərkəzdən sanki bu proseslər idarə olunur və Gəncəni seçmələri də təsadüfə oxşamır. Biz bilirik ki, Gəncənin Azərbaycanın taleyində necə böyük rolu var. Bunu bizim düşmənlərimiz, Azərbaycanın dünyəviliyinə zərbə vurmaq istəyən qruplar, mərkəzlər də bilirlər. Çox təəssüf ki, həmin mərkəzlər bizim səhvlərimizdən də istifadə edirlər. Elmar Vəliyevdən əhalinin bir hissəsi narazı idi. Bu narazılığın səbəbləri əvvəlcədən araşdırılmalı idi. Məsələ ciddi diqqət mərkəzinə keçirilməli idi. Çünki bizi düşmən hesab edən qüvvələr də məhz bu kimi zəif nöqtələrimizi araşdırıb, təhlil edirlər, oradan da vururlar. Hadisədən sonra sosial şəbəkələrdə də bir qrup insanlar faktiki olaraq cinayətkara dəstək verirdi. Bunun psixoloji tərəfləri çox təhlükəlidir və gələcək üçün böyük təlatümlər vəd edir. Bizə sabitlik lazımdır və bu sabitliyi poza biləcək səbəblər araşdırılmalı, onlar ortadan qaldırılmalıdır".

**Politoloq bildirib ki, son hadisələr bizə dərs olmalı və zəif nöqtələrimizi öyrənməliyik:** "Ortaya çıxan suallara cavab verməliyik. Suallara cavab vermədən, araşdırma aparmadan, alternativ hesabatlar hazırlamayıb yalnız "hər şey superdir" deməklə, təhlükəni konservləşdiririk. Nəticədə isə bunlar özünü çox pis şəkildə büruzə verər. Əsas məqsədimiz torpaqlarımızı işğaldan azad etmək olduğu halda, bizi arxadan vurmaq istəyənlər var. Arxadan vuranları nə yaxşı tədqiq edirik, nə də zəif nöqtələrimizi öyrənməyə çalışmırıq. Sabah bir başqa rayonda da oxşar hadisə baş verə bilər. Əlbəttə ki, bu, o demək olacaq ki, hansısa plan hərəkətə gətirilib və düyməyə basılıb. Demirəm ki, Mingəçevirdəki olayı hansısa xarici qüvvə həyata keçirib. Ancaq həmin xarici qüvvə Azərbaycan üçün hansısa gərgin günü gözləyə bilərdi. Bu gün gələn kimi öz niyyətini həyata keçirə bilərdi. Fikir verin ki, Gəncədə sıradan polis nəfərləri qətlə yetirilməyib. İki nəfər çox yüksək rütbəli polis zabiti öldürülüb ki, bunu da təsadüf hesab etmirəm. Burada da öncədən plandırılmış bir gedişat görünür. Yunis kimi müxtəlif qütblərə bağlı şəxsi Azərbaycanda tapmaq çox çətin olardı. Bu adamı işə kim təhrik edibsə, o da çox professional seçim edib. Bu adamı seçməklə həm də diqqətləri Rusiyanın üzərinə gətirdilər... Hadisə baş verib, şayiələr bitmir. Bilinmir ki, Elmar Vəliyev sağdır, yoxsa hansı haldadır. Bizim dövlət strukturları bu haqda da düşünməlidir. Bəli, bunu kim həyata keçirib, məqsədi nədir və sonrakı istəyi ola bilərmi? Bu suallara cavab tapılmalıdır. Bəlkə başqa rayonda da oxşar hadisə planlaşdırılır. Ona görə də alternativ hesabatlar hazırlanmalı, araşdırma başlanmalıdır. Xalq və dövlət birliyinin olduğunu biz yaxşı bilirik və deyirik də. Ancaq əsas məsələ bu deyil. Azərbaycanın zəif nöqtələri araşdırılmalı, ciddi tədbirlər görülməlidir".

❑ **Əlì RAÌS,**
**"Yenì Müsavat"**



# Gəncənin yolları burma, burmadı...

Zamin HACI
zaminhaci@gmail.com

"Əli xan Şirvanşir altıya on beş dəqiqə işləmiş Gəncə körpüsündə, pulemyot arxasındakı mövqeyində həlak oldu. Onun meyiti qurumuş çaya düşmüşdü... Biz səhər erkən, ruslar sonuncu hücuma keçməzdən bir az qabaq onu məscidin həyətində dəfn elədik"

*(Qurban Səid, "Əli və Nino")*

**Mən Aran Qarabağda doğulub böyümüşəm, bəlkə də buna görə Gəncə məndən ötrü həmişə daha milli Azərbaycan şəhəri təsiri bağışlayıb. Bakının xətrinə dəyməsin, əlbəttə. Paytaxtımız, gözümüzün işığı, başımızın tacı olsa da Bakı haradasa beynəlmiləl şəhər sayılırdı.**

Həmişə fikirləşmişəm ki, bəlkə də cümhuriyyətimizi quran kişilər paytaxtı o zaman Gəncədən Bakıya köçürməsələr, o hökumətin ömrü daha uzun sürərdi. Liman şəhərinin xarici düşmənə müqaviməti bir qədər çətindir. Nəinki ölkənin içində olasan. Sənə gəlib çatanacan neçə rayon keçməli olsunlar, savaşmalı olsunlar. Elə ADR-in süqutu da, deyəsən, ən gec Gəncədə olmuşdu. "Əli və Nino" romanının sonunda Əli xan Şirvanşirin Gəncə körpüsündə həlak olmasını oxuyanda gözlərim dolub. 90-ların əvvəlində bir gəncəli tələbə yoldaşım var idi, həmişə qürurla deyirdi: "20 yanvarda sovet ordusu bütün Azərbaycanı tutdu, yalnız Gəncə avtovağzalının binası üstündən üçrəngli bayrağımızı endirə bilmədilər".

Bir də şəxsi taleyimin Gəncə ilə kəsişməsi olub. 1999-da ordudakı problemlərdən yazdığım üçün müdafiə naziri Səfər Əbiyevin birbaşa göstərişi ilə Murova aparılmışdım. Qəribə vəziyyət idi - 3 ay qabaq ölümündən yazdığım əsgərlərin yerində xidmət keçməliydim. Sağlıq durumum buna imkan verməsə də. Ancaq yaxşı adamların sayəsində birtəhər xidməti yola verirdik. Bir gün qərara gəldim ki, ordunun səhiyyə xidmətində də nəsə "inspeksiya" aparım. Eynəyimi gizlətdim, dedim, sınıb. Məcbur qalıb məni Gəncədəki hərbi hospitala, yoxlamaya gətirdilər. Orada göz şöbəsinin həkimi, gəncəli Venera Şərifovanın heyrətamiz qeyrəti qarşısında mat qaldım. Çünki kişilərin belə qorxub çəkindiyini eləmişdi: gözümü yoxlayandan sonra bir sənəd yazdı ki, bu adamın cəbhə xəttində xidməti qanunsuzdur. Ona cəbhə xəttinə, dağlıq zonaya, piyada qoşuna aparılmağımın xüsusi sifariş olduğunu, birbaşa müdafiə naziri Əbiyevdən gəldiyini demişdim. Ancaq Venera xanımın qətiyyətində zərrə qədər sarsılma olmuşdumu? Yox. Soyuqqanlı formada: "Mən qanunsuzluğa imza ata bilmərəm. Sən o cür şəraitdə xidmətə yararlı deyilsən" demişdi.

Gəncə mənim üçün müəllim, şair Nizami Aydın deməkdir. Yadıma gəlir, hospitalın Nizami Aydının adını daşıyan küçədə yerləşməsinə sevinmişdim. Nizami Aydın Lorkanı orijinaldan oxumaq üçün ispan dilini öyrənən, özü də çox orijinal bir şair idi. Qarabağda müharibə başlayanda tank komandiri kimi Ağdərədə vuruşmuş, elə tankın içində həlak olmuşdu - qəbri də yoxdur. Özü də 31 yaşında ölmüşdü - Lorka kimi. Lorkanı da başqa faşistlər öldürmüşdülər.

Yaxud AXC-Müsavat hakimiyyətini bəyənməmək, hətta söymək olar, buna görə adamı tutmurlar, ancaq yada salın, o zaman Gəncəyə icra başçısı kim qoyulmuşdu? Mürşüd Məmmədli kimi dəyərli ziyalı, nüfuzlu xadim. Hanı indi Mürşüd müəllim kimi insanlar? Niyə Gəncədə belə gerçək ağsaqqallar, ziyalılar faktiki qəhətə çəkilib? Deməli, şəhərlə bağlı siyasət düzgün qurulmayıb. Ölkənin ikinci ən böyük şəhərinin adını xəbər lentimizdə iyirmi ikinci şəhər kimi də görmürdük. Gələn xəbər-ətər də heç gəlməsə yaxşı idi: "Filankəs rəisə tüfəng atdı, xoşbəxtlikdən güllə açılmadı", "İcra başçısı filarmoniyanın müdirini qovdu" və sairə. Azərbaycan tarixində o boyda rolu olan şəhəri "Gəncədən gəlirəm yüküm xurmadır" səviyyəsində (Əhməd Cavada bütün sevgimizə baxmayaraq) təbliğ eləməklə iş aşmır. Bir az da "Gəncəyə gedirəm..." oxumaq lazım idi.

... Əlbəttə, polisin qətlə yetirilməsi hətta ABŞ-da adi haldır. Hamı bilir ki, polis dünyada ən təhlükəli peşələrdən biridir. Ancaq hər bir hadisə bütün detalları ilə araşdırılmalı, qiymət verilməlidir - sonra təkrarlanmaması üçün. Misal üçün, bir sual dünəndən beynimi deşir: əgər qanunsuz piket xəbəri öncədən məlum idisə, nə üçün yetərincə yüksək vəzifəli polislər, ümumiyyətlə, bütün polislər oraya xüsusi mühafizə geyimləri olmadan çıxmışdı və ya çıxarılmışdı? Xüsusi mühafizə geyimləri ancaq oyuncaq müxalifətin stadion mitinqlərində göstərmək üçündürmü?

Etiraf edilməlidir ki, Gəncədə də başqa regionlar kimi sosial problemlər illərlə yığılıb qalıb. İşsizlik kütləvidir. Qabaqkı başçıya tort, paxlava şoularına görə lağ edərdik, ancaq görürsünüzmü necə müdrik adam imiş? Başa düşürmüş ki, millətə heç olmazsa tamaşa verməlisən. "Çörək yoxdursa, tort yesinlər" - necə deyərlər.

Sonda bir daha qeyd edək ki, mətbuatın, jurnalistlərin siqnallarına diqqətlə yanaşmaq lazımdır. Qoy bir dəfə də belə başlıq oxuyaq: "Üç dövlət hüquq-mühafizə orqanı filan qəzetin yazdığı faktları yoxlamış, beşməkan məmurun həqiqətən qanunları pozduğu aşkar edilmişdir".



# İrəvandan Moskvaya kompromat savaşı - 1 mart işində "rus izi", Xocalı təhdidi...

## Paşinyanın Rusiyanı ən zəif yerindən vurub uğurlu mövqeyə çıxmaq planı; Köçəryan ətrafında mühasirə daralır; Rusiya müdaxilə etməsə, Xocalı soyqırımında adı keçən 366-cı rus alayı məsələsi gündəmə gələ bilər...

**Ermənistanda "1 mart işi" ilə bağlı qalmaqal böyüyür. Xatırladaq ki, 2008-ci ilin həmin tarixində prezident seçkilərinin saxtalaşdırılmasına etiraz edən 11 dinc nümayişçi güllələnərək öldürülüb. O vaxt prezident Robert Köçəryan, müdafiə naziri Mikayel Arutyunyan, silahlı qüvvələrin İrəvan qarnizonunun rəisi isə hazırda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - "Rus NATO-su") baş katibi postunu tutan Yuri Xaçaturov olub.**

Ötən sayımızda Xaçaturovun da Ermənistan Xüsusi İstintaq Xidmətinə dəvət edilməsi haqda xəbər vermişdik. Xatırladaq ki, Serj Sərkisyan prezident olandan sonra Yuri Xaçaturov uzun müddət Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsini tutub. Erməni general bilavasitə Moskvanın adamı sayılır və İrəvandan çox Kremlə sadiqliyi ilə tanınır. Onun ötən il KTMT-yə baş katib gətirilməsində bu amil də mühüm rol oynayıb.

Eləcə də Xocalı hərbi caniləri - Robert Köçəryan, digər eks-prezident Serj Sərkisyan, Sərkisyan dönəmində müdafiə naziri olmuş Seyran Ohanyan, Xaçaturovdan sonra Baş Qərargah rəisi postunu tutmuş və Paşinyanın qovduğu general Movses Akopyan (Xocalı soyqırımı zamanı Xankəndindəki 366-cı rus motoatıcı alayın komandir müavini olub) Rusiyanın adamları sayılır. Xaçaturov xaric, onların hamısı qarabağlıdır.

*****

Göründüyü kimi, bu adamların heç biri Ermənistanın yeni siyasi-hərbi rəhbərliyində təmsil olunur. Diqqət çəkən həm də odur ki, ümumiyyətlə, yeni hökumətdə və ordu rəhbərliyində Rusiyanın bircə adamı belə yoxdur. Ölkənin Təhlükəsizlik Xidmətinin katibi də Qərbə rəğbəti olan Armen Qriqoryandır.

Üstəlik, Nikol Paşinyan "Kreml uşaqları"nın təqibini davam etdirir. Sanki bununla nə vaxtsa qəzəbinə tuş gələcəyi Moskvaya qarşı indidən kontur-müdafiə mexanizmi qurur, kompomat hazırlayır. Onun bu yolla ən azı, erməni xalqı qarşısında öz imicini, etimad kapitalını artırıb, Rusiyanı yerli ictimai rəydə bir az da gözdən salmaq istəyi dəqiqdir. Ki, sonra Qərbə kurs götürmək ona daha asan olsun, bunun üçün arxasında yetərli ictimai dəstəyi hiss eləsin.

Hər halda, Xaçaturovun ifadə vermək üçün İrəvana çağırılması ilə Paşinyan 1 mart hadisələrində Moskvanın da əlinin ola biləcəyinə işarə vurur. Rəsmi Kremlin buna reaksiyasının nə olacağını yəqin ki, tezliklə biləcəyik. Bu günə hələ ki, nə Rusiya XİN-in, nə də "erməni sevdalısı" Mariya Zaxarovanın Xaşaturovun istintaqa çağırılması ilə bağlı açıqlama verməməsi maraq doğurur...

*****

Təbii ki, ittiham edilənlər yaxalarını kənara çəkməyə çalışır və çalışacaqlar. Çünki ortada 11 günahsız adamın ölümü var. O sırada istintaqa çağırılan Köçəryan deyib ki, 1 mart hadisələri zamanı tətbiq edilən zorakılıq haqqında əmri prezident yox, müdafiə naziri verib. Onun sözlərinə görə, məhz Ermənistanın ovaxtkı müdafiə naziri Mikayıl Arutyunyan ordunun etirazçılar üzərinə yeridilməsi haqqında məxfi "N 0038" əmrini imzalayıb. Ancaq bunu da deyib ki, "müdafiə nazirini öz vəzifəsini yerinə yetirməkdə ittiham etmək absurddur".

Köçəryan habelə hadisələr zamanı güc tətbiq edilmədiyini və ordu bölmələrinin xalqla toqquşmalarda iştirak etmədiyini söyləyib. Onun son açıqlamaları isə hakimiyyətə yaxın KİV-lərdə səmimi qəbul edilməyib.

**"Çox maraqlıdır, ordu ilə etirazçılar arasında toqquşma olmayıbsa, onda gülləni kim atıb - polis, Daxili Qoşunlar, yoxsa oliqarxiya?" "Yeni Müsavat" xəbər verir ki, bu barədə 1 in.am nəşrində dünən getmiş məqalədə deyilir.**

**Yazıda daha sonra deyilir:** "Köçəryan sanki bununla hamıya xatırladır ki, onlar eyni qayıqda olublar və əgər o batsa, özü ilə digərlərini də dartıb aparacaq. Başqa yandan, bu, əlbəttə ki, istintaqla əməkdaşlığa hazırlığın təzahürü sayıla bilər - hansı ki, ittihamların öz təsdiqini tapacağı təqdirdə "yüngülləşdirici amil" ola bilər. Digər tərəfdən, olduqca maraqlı situasiya yarana bilər - nə vaxt ki, istintaqa başqa məmurlar da çağırılacaq. Bu isə mütləq olacaq. Artıq məlumdur ki, Yuri Xaçaturov ifadə vermək üçün istintaqa çağırılıb. Məntiqli olmazdı, əgər hər şey Köçəryan və ya Xaçaturovla məhdudlaşsaydı - təbii ki, onlar bütün günahı öz üzərilərinə götürməsələr. Amma deyəsən, bunu əksi baş verir: hər halda, ikinci prezident işarə vurur ki, hər şeyin onun üstünə atılmasına imkan verməyəcək. Bu isə o deməkdir ki, istintaqa yeni şəxslərin çağırılması qaçılmaz olacaq".

Əlbəttə ki, Rusiyadan siyasi sığınacaq istədiyi deyilən Köçəryanın boğazına su çatanda o, özünü xilas üçün hər şeyə gedə bilər. Hətta bunu da boynuna ala bilər ki, "Xocalı soyqırımını biz yox, Rusiyanın 366-cı alayı törədib..."

*****

**"Köçəryan haqqında kifayət qədər qalmaqallı istintaq və məhkəmə prosesinin baş tutması mümkündür". Bunu axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq Ermənistanda Köçəryanla bağlı irəli sürülən iddiaların kifayət qədər əsaslı olduğunu vurğulayıb:** "Bunlardan birincisi 2008-ci il 1 martda Serj Səkisyanın prezident seçilməsinə etiraz edən İrəvan əhalisinin nəinki Ermənistanın xüsusi təyinatlıları, hətta Rusiyadan çağırılmış "Alfa" qrupunun köməyi ilə güllələbaran edilməsidir. Rəsmi qaynaqlarda 11 nəfər göstərilsə də, mitinqlərdə 31 nəfərin həlak olduğu, 300-ə qədər adamın ağır xəsarətlər aldığı iddia edilir. Ermənistan Xüsusi İstintaq Komitəsi bununla yanaşı, həmin dövrdə mitinqçilərə qarşı güc tətbiq edilməsinə ehtiyacın olub-olmamasını, hər iki halda bu əmrin kim tərəfindən verilməsini, ikinci bir ölkənin prosesə qoşulması məsələlərini də ortaya çıxaracaq. Təbii ki, burada söhbət ilk növbədə Rusiyadan gedir".

**Politoloq əmindir ki, 1 mart 2008 və 27 oktyabr 1999-cu il parlament teraktını törədənlərin Köçəryan tərəfindən təlimatlandırılması faktı təsdiq olunarsa, bu, onun sonu olacaq:** "Köçəryanın cinayətləri həddindən artıq çoxdur. Onun rüşvət və korrupsiya ilə bağlı əməlləri həm Ermənistan xalqına, həm də dövlət orqanlarına məlumdur. Köçəryan haqqında kifayət qədər qalmaqallı istintaq və məhkəmə prosesi baş tuta, onun toxunulmazlıq hüququ parlament tərəfindən qaldırıla və nəticədə o, həbs edilə bilər. Azərbaycana qarşı ağır cinayətlər törətmiş şəxsin həbsinin gerçəkləşməsi böyük bir hadisə olsa da, onun xalqımıza qarşı törətdiyi cinayətlərin istintaqa cəlb edilməsi erməni şovinizminin əyani sübutudur".

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

**Mingəçevir olaylarının ilk gecəsində, enerji böhranı başlayan anda bir köşə yazdım. Oradakı sitatı olduğu kimi verirəm: ''Ölkəmiz yenicə qürurverici olayları yaşamışdı, paytaxtımızın baş meydanından şərəfli ordumuzun keçidini heyranlıq və şükranlıqla izləmişdik. Dost və düşmənlərimiz dövlətimizin qüdrətini görüb, qəbullanmışdılar.**

**Rauf ARİFOĞLU**



# Gəncəni kimlər və niyə qanadır...

## Prosesin arxasında bu paytaxtlar durur: ilk dəfə açıqlanan məlumatlar

Ermənilər və onların içimizdəki uzantıları narahat olmuşdular...

Belə bir zamanda ölkə texniki bir səbəbdən qaranlığa qərq oldu və Azərbaycan işıqsız qaldı.

Mən çox narahatam; hər nə səbəbdən baş versə də, bu, yaxşı hal deyil; xüsusilə ona görə narahatam ki, bu, sanki hansısa güclərin o möhtəşəm paraddan sonra Azərbaycana mesajı idi...''

*(Link burada - http://musavat.com/author-news/felaket-gecesi-qaranliqda-kesf-olunan-gercekler-rauf-arifoglunun-yazisi_538352.html ttp://musavat.com/author-news/felaket-gecesi-qaranliqda-kesf-olunan-gercekler-rauf-arifoglunun-yazisi_538352.html )*

***

Ardınca Gəncənin icra başçısını vurdular.

Dərhal Ələkrəm Hümmətov və Zabil Məhərrəmov başda olmaqla, xaricdəki separatçı "azərbaycanlılar", Avropada oturum alan bəzi mühacirlər fəaliyyətə başladılar.

Onların heç biri gəncəli deyil, əksəriyyəti din və etnik pərdələr altında fəaliyyət göstərən təxribatçılardır.

Lakin hamısı ''Gəncə xalqı''na müraciət edir, onun ayağa qalxıb, üsyan etməsinə çağırış edirdilər.

Tətikçi Yunis Səfərov da bu şəbəkənin adamıdır. Yaxud da onu və ailəsini yönəldən! Onlar olayları mütləq din pərdəsinə bürümək üçün əllərindən gələni edirlər.

Açıq deyim - İran hədəf göstərilir. Kampaniyanı o qədər açıq və kobud aparırlar ki, heyrətlənməyə bilmirsən. Lakin biz jurnalistləri belə oyunlarına bəzən alət edə bilirlər...

Tətikçi Səfərovun ''dəstəkçiləri'' youtube-də özlərini yırtırlar - arxa fon, danışıq və şüarlar, çağırışlar baxanda elə təəssürat oyadılır ki, sanki bu kərətalar İrandan, lap elə Qumdan çəkiliş yapıblar.

Saytı, ya da kanalı araşdırırsan, bağıranın özünün yaşayış yerini öyrənirsən... Məlum olur ki, adam Hollandiyadadır. Ya da İrəvanda. Ya da Moskvada, ''separatçı azərbaycanlıların'' studiyalarından birində...

Söyüş müxalifəti də Qərb paytaxtlarından start vermişdi kampaniyaya - onlara daxildən insan resursları düzəldə bilmədilər. İndi ''B'' variantı işə salınıb...

Nə olur-olsun, baş verənləri ictimai rəydə İranın üzərinə yıxıb, belə bir görüntü verib, Azərbaycanı öz qonşusu, strateji partnyoru ilə düşmən etmək niyyəti ortadadır.

Buna da paralel olaraq, Azərbaycan daxilində İrana simpatiya bəsləyən vətəndaşlarımızın, dini icma və ayrı-ayrı inanclıların aktiv, ya da passiv dəstəyini almaqdı planları... Bu məqamda rəsmi Tehran susmamalı, açıq bəyan və olayı pisləyən bəyanat verməli, ona simpatiya bəsləyənlərə açıq inkar mesajı yollamalıdır...

***

Daha bir mühüm məqam - hər kəs ölkənin hərbi prokuroru, Elmar Vəliyevin qardaşı Xanlar Vəliyevin açıqlamasını xəfifə aldı, ''qardaş yangışı'' dedi.

Doğrudur, tətikçinin anası erməni deyil. Bunu yanlış dedi.

Lakin onun təsvirində bir detal da vardı.

Moskvadakı 157 saylı məktəbdə kitabxanaçı işləyən Leyla Səfərova haqda dedikləri...

''Yunis Səfərovun anası Rusiya kəşfiyyatına işləyir'' - ölkənin ən məlumatlı şəxslərindən biri olan Xanlar Vəliyevin bu sözlərinə çoxları güldü, ciddi baxmadılar...

Necədi sizin üçün, belə bir məlumat - Leyla Səfərova artıq 4 ildir ki, ''FSB'' akademiyasının kitabxanaçısıdır. Bu özəl və dəqiq məlumat diqqətəlayiq deyil?

Oraya - bu mühüm bir posta, sizcə, sıradan birini götürərlər?

Niyə ölkənin ən məlumatlı adamlarından birinin iddiasını kənara qoyduq?

***

İki polis zabiti Gəncənin baş meydanında qətlə yetirildi - tətikçi Yunisin yarımçıq işi tamamlanır? Normal vətəndaş belə bir qətlə əl atarmı? İki polis zabitini xəncərləyərmi?

Günlərdir, sosial şəbəkələr üzərindən ayağa qalxın deyən şəbəkə ortaya cəmi 150-200 adam çıxarda bildi.

Lakin bu qədər məhdud qüvvə ilə də ölkədəki atmosferi dəyişə bildi.

Sosial şəbəkədə Gəncədəki xain iğtişaşı yayınlayanların əksəriyyətinin xarici bağlantıları var - bu detala da diqqət etdim.

Bir sözlə, Azərbaycana qarşı qorxulu bir oyuna start verilib. Xatırlayırsınızsa, bu ilin əvvəllərində prezidentin köməkçilərindən biri açıq dedi ki, seçkiləri ona görə qabağa çəkdik ki, Azərbaycanı payıza qədər qarışdırmaq istəyirlər.

Prosesə start verildiyini də dedi. İctimaiyyəti müqavimətə çağırdı.

Çağırış baş tutdu. Lakin xarici və daxili düşmənlərin məkrli planı dəyişməyib, görünən budur.

Bu dəfə ictimai yox, ümummilli müqavimət təşkil olunmalıdır.

Yekunda onu deyim ki, bizim vurulan başçı Elmar Vəliyevlə xüsumətimiz var. Gəncə camaatına etdiklərinin bir qismini bizə və müxbirlərimizə qarşı edib. Ondan tənqid yazan xanım müxbirlərimizdən birinin Gəncədə yaşayan qardaşını həbs etdirib - hələ də içərisindədir. Redaksiyamıza qarşı mənəvi terror təşkil edib...

Mən ölkəmdə bu cür məmurların iş başında olmasını istəmirəm.

Lakin sadəcə, bu qədərpis hesab etdiyimiz hər kəsə silah çəksək, bizə də silah çəkəcəklər - hər kəsin öz pisi var...

Bu baxımdan, Elmar Vəliyevə səmimi qəlbdən nifrət edənləri də sağduyuya çağırıram. Xarici güclərin təxribatlarına qoşulmayın. İstər Gəncə meydanında, istərsə də facebook platformasında.

***

Mən bu şəhərdə ''Yeni Müsavat'' qəzetinin ilk redaksiyasını qurmuşam, 5 il bu şəhərdə təhsil almışam, ölkənin ilk silahlı və könüllü batalyonunun qurulmasında və Gəncə ətrafında yerləşən Çaykəndin düşməndən təmizlənməsi prosesində iştirak etmişəm. Gəncə mənə doğmadı.

Gəncəni - Azərbaycanı təxribatlardan və qandan qoruyaq.

# Ərdoğanın Bakı səfəri: qardaşlıq əlaqələri yeni mərhələyə keçdi

## Politoloq: "Türkiyə prezidenti bununla bir daha vurğuladı ki..."



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan prezident seçildikdən sonra ilk səfərini Azərbaycana etdi. Ərdoğan iyulun 10-da Bakıda bir günlük səfərdə olduğu zaman ilk olaraq Şəhidlər xiyabanı və Türk şəhidliyini ziyarət etdi.**

Daha sonra isə Azərbaycan prezidenti İlham Əliyev türkiyəli həmkarını rəsmi mərasimlə qarşıladı və bunun ardınca da iki ölkənin prezidentləri arasında təkbətək görüş oldu. Təkbətək görüş başa çatandan sonra İlham Əliyevin və R.T.Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirildi.

Ərdoğan mətbuat konfransı zamanı Azərbaycan prezidentinə FETÖ-yə qarşı mübarizə ilə bağlı təşəkkür etdi. Türkiyə prezidenti bildirdi ki, iki ölkənin təhsil nazirlikləri bu sahədə problemləri həll etmək üçün birgə çalışacaq. O qeyd etdi ki, Türkiyə Dağlıq Qarabağ və Naxçıvan məsələlərində üzərinə düşəni edib və etməyə davam edəcək: "Naxçıvanla Türkiyə arasında quru yolları ilə bağlı çətinliklər aradan qalxıb. Biz indi bir dəmir yolu çəkməklə nəqliyyat əlaqələrini inkişaf etdirərək bu sahədə daha bir önəmli addım atacağıq".

**Ərdoğanın sözlərinə görə, Naxçıvan sakinləri sərhəddəki Türkiyə xəstəxanalarının imkanlarından istifadə edə bilər:** "Bu məsələdə dəstək verəcəyimizi bildirdim".

**Türkiyə prezidenti nəzərə çatdırıb ki, NATO sammitində iki ölkənin müştərək problemlərini gündəmə gətirəcək:** "Qardaşım İlham Əliyevin şəxsində Azərbaycan xalqına hörmətimi, ehtiramımı çatdırıram".

**"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli Ərdoğanın Bakıya gəlməsini çox böyük tarixi səfər adlandırdı:** "Doğrudur, bunun gündəliyi işgüzar xarakteri daşıyırdı və bəzi rəmzi əlamətləri özündə ehtiva edirdi. Lakin bunlara baxmayaraq qısamüddətli səfər zamanı həm Azərbaycan, həm də bütün türk dünyası üçün əhəmiyyətli mesajlar verildi. Əvvəla, belə bir cəhət xüsusi vurğulandı ki, Türkiyə-Azərbaycan münasibətləri durmadan inkişaf edir və yeni keyfiyyətlərlə zənginləşir. Bu inkişafın gələcəkdə daha böyük uğurlara vəsilə olması kifayət qədər böyükdür. Burada Türkiyə ilə Azərbaycan arasında hərbi ittifaqın yaradıla biləcəyini xüsusi vurğulamaq istəyirəm. Türkiyə prezidenti öz çıxışında birmənalı şəkildə bildirdi ki, Azərbaycanla əlaqələr bölgədə sülhün və sabitliyin bərqərar olmasına xidmət edir. Bu ikili əlaqələr bölgənin təhlükəsizliyinin, əmin-amanlığının möhkəmləndirilməsinə kömək olacaq. Cənab Ərdoğan bununla bir daha vurğuladı ki, Azərbaycanın bütün problemlərinin həllində onun yanındadır. Xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə Azərbaycanla ortaq mövqedə dayanacaq, Azərbaycanın haqq işinin qələbəsi üçün əlindən gələn köməyi əsirgəməyəcək. Bu, Türkiyə prezidenti tərəfindən kifayət qədər səmimiyyətlə söylənildi. Bütün bunlar onu göstərir ki, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünə nail olunması üçün həm siyasi, həm hərbi, həm də iqtisadi sahədə əməkdaşlığın bütün formalarından istifadə ediləcək. Belə bir cəhəti də vurğulamaq lazımdır ki, Ərdoğan Bakıda olarkən dövlət olaraq Türkiyə və Azərbaycanın, eləcə də iki prezidentin dost və qardaş olduqlarını xüsusi vurğuladı. Bildirdi ki, bu münasibətlər dövlətlərarası münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır".

**Politoloq bildirdi ki, səfər zamanı Naxçıvanla bağlı məsələlərin də gündəmə gətirilməsi prinsipial əhəmiyyətə malikdir:** "Çünki 1923-cü ildə Türkiyə ilə Rusiya arasında bağlanılmış müqaviləyə görə, Türkiyə Naxçıvan bölgəsinin təhlükəsizliyi və Azərbaycanın tərkib hissəsi kimi inkişafı üçün hər bir siyasi məsuliyyəti daşıyır, bu bölgənin təhlükəsizliyinin zəmanətçisidir. Bu, Atatürklə Lenin arasında bağlanan müqavilənin əsas müddəalarından biridir. Bu gün də Türkiyə həmin müddəanın yerinə yetirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini qeyd etdi. Erməni tərəfi bəzi hallarda Naxçıvanla bağlı da sərsəm iddialar irəli sürür. Bu iddiaları "tarixi" faktlarla əsaslandırmağa çalışır. Ancaq ordumuzun bu yaxınlardakı əməliyyatı, Türkiyə tərəfinin də Naxçıvanla bağlı üzərinə götürdüyü öhdəliklər onu göstərir ki, bu bölgədə də Azərbaycanın mövqeləri möhkəmdir. Əvvəllər Türkiyə prezidenti seçildikdən sonra ilk səfərini Şimali Kipr Respublikasına edib, sonra Azərbaycana gəlirdi. İndi isə ilk səfər Azərbaycana edildi. Bu, çox böyük əhəmiyyətə malikdir ki, Türkiyə özünün strateji müttəfiqi kimi Azərbaycanı seçir. Tərəflər arasında iqtisadi məsələlərlə bağlı geniş müzakirələr oldu, ticarət dövriyyəsinin artırılması danışıldı. Bu da çox önəmli məsələ idi. Bir sözlə, iki dövlət arasında münasibətlər hormonik surətdə inkişaf edir və hər iki tərəfin maraqlarına cavab verir. Tam şəkildə demək olar ki, Ərdoğanın bu səfəri Türkiyə-Azərbaycanın münasibətlərində yeni mərhələ kimi yadda qalacaq".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



# NATO sammiti: zirvələrdən ətəklər niyə görünmür?

**Hüseynbala SƏLİMOV**

**NATO-nun hər sammiti ərəfəsində üzv və iştirakçı dövlətlərin buna böyük bir məzmun verməsi artıq adi hal alıbdır. Amma növbəti sammit yetişir, Alayans üzvləri danışıb-söhbətləşib dağılışırlar və böyük hesabla heç nə baş vermir, əksinə hər yeni sammitdə yeni-yeni ziddiyyətlər üzə çıxır və hətta məlum olur ki, trans-atlantik təhlükəsizlik ideyası belə daha əvvəlki aktuallığında deyildir, lap Krılovun məşhur təmsilindəki kimi - hərə arabanı bir tərəfə çəkir...**

Bu sammit ərəfəsində də vəziyyət təxminən belədir - Brüsseldə əsl Helsinki xofu yaşanır. Artıq indidən Avropa ölkələri bərk narahatdırlar ki, sammitdən dərhal sonra Rusiya prezidenti ilə görüşəcək Tramp onlara daha bir sürpriz yaşatmayacaq ki?..

Avropa Birliyi ölkələri çoxdan kontinentin ölkələrinə yanaşmada "pilləvari prinsip"in tərəfdarıdırlar. Bəli, bir var, tox və problemsiz Qərbi Avropa, bir də var problemli Şərqi Avropa ölkələri.

Qərbi Avropa ölkələri şərqli qohumlarını öz standarlarına yaxınlaşdırmaq üçün epizodik cəhdlər etdilər. Amma sonradan bunun bekara məşğuliyyət olduğunu anlayıb dedilər ki, Avropadakı inkişafa da differensial yanaşmaq gərəkir; təəccüblənmək lazım deyil ki, niyə görə Polşa özünün sosial göstəricilərinə görə, məsələn, Danimarka səviyyəsində deyil?

Ona görə də Avropa proseslərilə bağlı ümidlər də fərqli və differensialdır. Qərbi Avropanın hansı cabaları yaşadığı bizim üçün tam anlaşıqlı olmasa da, hər halda, Şərqin qayğılarını anlamaq iqtidarındayıq. Elə bu baxımdan növbəti NATO sammiti də istisnalıq təşkil etmir. Məsələn, hamını belə sual maraqlandırır ki, görən Alyans GUAM üçülüyünə - Moldovaya, Gürcüstana və Ukraynaya hansı cavabı verəcək, onlarçün daha hansı mərhələləri və ya statusları düşünəcəkdir?..

Ermənistanın da baş naziri çox ciddi şəkildə NATO-nun növbəti sammitinə hazırlaşırdı - biz bu sətirləri yazarkən onun niyyəti hələ tam bəlli deyildi.

Üstəlik, N.Paşinyanın yaltaq və belağətli bəyanatlardan savayı Alyansa konkret nə təklif edəcəyini təxmin edə bilmirik, çünki Rusiya bu xüsusda İrəvanın çabalarını diqqətdə saxlayır. Amma duyulanı budur ki, N.Paşinyan ölkəsinin müxtəlif NATO proqramalarında iştirakını əvvəlki dövrlərlə müqayisədə intensivləşdirmək əzmindədi. Amma daha intensiv və ciddi təmaslarçün Rusiyayla münasibətlərə yenidən baxılmalıdır.

Hələ ki, ermənilər eyni vaxtda "iki stulda oturmağa" cəhd edirlər - bir tərəfdən AB-lə sıx əlaqələrə can atır, digər tərəfdən də Avrasiya Birliyində qalmağa çalışırlar. Bir tərəfdən KTMT- nın üzvü kimi bir status daşıyır, digər tərəfdənsə dünyanın digər hərbi-siyasi qütbü - NATO ilə təmasları artırmağa cəhd edirlər.

Hər şeyi qamarlamaq ermənilərin lap çoxdankı xislətidir. İndi də düşünürlər ki, bu nömrə iki çarpışan, biri-birini didməyə hazır olan iki hərbi və geosiyasi-geoiqtisadi qütbə münasibətdə də alınacaq. Sözsüz ki, erməniləri tamam axmaq yerinə qoymaq da olmaz. Bunların Qərbə, AB-yə və NATO-ya üz tutmasının ən azı bir neçə səbəbi var.

Birincisi, Ermənistan real gücün və inkişaf perspektivinin kimin tərəfində olmasının fərqindədirlər. Əgər orta statistik rus yazıçısı deyirsə ki, ölkəsi Avropadan azı 150 il geri qalıb, bunun ermənilərin ağlına belə gəlməyəcəyini düşünməyə əsas yoxdur. Onlar yetərincə hiyləgər millətdi və siyasi küləklərə həssaslıqlarını da hələ itirməyiblər.

İkincisi, ermənilərin istəyinə rəğmən, Rusiya Cənubi Qafqazdakı maraqlarını bütünlüklə Ermənistanın axmaq ideyalarına tabe edə bilməz, çünki onun burada başqa maraqları da var. Amma ermənilər özlərinə Kremldən ABŞ-ın İsrailə olan münasibətinə bənzər münasibət umurlar.

Üçüncüsü, dünyadakı modernləşmə dalğasından da geri qalmaq istəmirlər. Heç də sirr deyil ki, NATO-dan, AB-dən çox şey öyrənmək və hətta nəsə qoparmaq da olar. Onlar isə bunun ustasıdırlar. Elə bu səbəbdən biz də bu prosesləri diqqətdə saxlamalıyıq. Azərbaycanda belə misal var: "Seyid cəddinə arxayın olan kimi". Biz də yalnız neftimizə və qazımıza arxayın olmamalıyıq. Alyanslar, çoxtərəfli əlaqələr və dünya siyasətində iştirak - bunlar çox vacib amillərdir.

Əlbəttə ki, söhbət NATO-ya və AB-yə üzvlükdən getmir. Bunlar ciddi bir şəkildə gündəmdə deyil - bu haqda ciddi danışmağı ciddi təhlilçilər və politoloqlar özləri üçün yüngüllük və yaxud da qeyri-peşəkarlıq sayırlar.

O səbəbdən də "Qonşudan qaldıq geri!" deyə panikaya düşmək üçün əsas yoxdu. Amma tale bizə elə "qonşu" qismət edib ki, bunun işi-peşəsi hara qoşulursa, qoşulsun, harada iştirak edirsə, etsin, bizim əleyhimizə iş aparmaqdır. Ona görə də biz də heç yerdə stulumuzu boş qoymamalıyıq.

**Apreldə keçirilən prezident seçkilərindən sonra hökumət kabinetinin tərkibində xeyli yenilənmələr oldu: 3 nazirliyin, 3 dövlət komitəsinin rəhbəri dəyişildi, yeni baş nazir təyin olundu. Yeni gələn nazir və komitə sədrləri öz növbələrində rəhbərlik etdikləri qurumlarda kadr islahatları apardılar. Bu dəyişikliklərdən bir qədər sonra yerli icra hakimiyyəti strukturlarında da kadr islahatlarına start verildi. Bir neçə rayonun icra hakimiyyəti başçısı yenisi ilə əvəz edildi.**



# İqtidar narazılıq yaradan icra başçılarını dəyişəcək

## Hakimiyyət kadr bankı formalaşdırır; payızda böyük kadr islahatları gözlənilir

Əksər müşahidəçilərin fikrincə, yerli icra strukturlarında kadr islahatları dayanmamalı, daha da genişləndirilməlidir. Məsələ burasındadır ki, yerli icra hakimiyyətləri əhali ilə siyasi hakimiyyət arasında əsas bağlantı rolunu oynayırlar. Onlar yalnız siyasi iqtidarın yerlərdəki nümayəndəsi deyil, həm də onunla əhali arasında vasitəçi, əsas körpüdür. Təsadüfi deyil ki, onların fəaliyyətindəki qüsurlar, kobud davranışları əhalidə bütövlükdə hakimiyyətə qarşı narazılığın yaranmasına səbəb olur.

Azərbaycanda geniş yayılmış mənfi tendensiyalardan biri yerli icra hakimiyyəti başçılarının özlərini "kiçik padşah" kimi aparmalarıdır. Bir çox hallarda bu davranış yerli əhalinin maraqlarının kobud şəkildə tapdanması, insanların təzyiq və təqiblərə məruz qoyulmasına qədər gedib çıxır. Eyni zamanda yerli icra strukturlarının fəaliyyəti əksər hallarda regionlarda sahibkarlığın inkişafına ciddi əngəl yaradır, biznesin fəaliyyətini tormozlayan amilə çevrilir. Bütün bunlardan çıxış edən əksər ekspertlər yerli icra hakimiyyətlərində kəskin kadr islahatlarının aparılmasını zəruri hesab edirlər.

Əldə etdiyimiz məlumata görə, hakimiyyətin yüksək dairələrində bu zərurətin nəzərə alınaraq, gənc və müasir düşüncəli kadrlardan ibarət bankın formalaşdırılmasına başlanıb. Məqsəd yaxın bir neçə ay ərzində ölkənin bütün rayonlarının icra strukturlarında genişmiqyaslı kadr dəyişikliklərinin həyata keçirilməsidir. Məlumata görə, onlarla gənc kadra xüsusi təlimlər təşkil olunur, onlara yeni idarəetmə prinsipləri aşılanır. Sentyabrdan etibarən yerli icra hakimiyyəti başçılarının böyük əksəriyyətinin həmin kadrlarla əvəz olunması nəzərdə tutulur.

Verilən məlumata görə, yenilənmə yalnız icra başçıları səviyyəsi ilə məhdudlaşmayıb, icra strukturlarının əksər pillələrini əhatə edəcək. Hakimiyyət bununla xalq arasında yerli icra başçılarının fəaliyyəti ilə bağlı yaranmış narazılıqları aradan qaldırmaq, eyni zamanda regionlarda sahibkarlığın inkişafına nail olmaq niyyətindədir.

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

# Kəlbəcərli girovlardan yeni xəbər

## BQXK nümayəndələri Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüblər

**Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri (BQXK) Ermənistan tərəfindən Şuşada girov saxlanılan kəlbəcərlilər Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, təmsil etdiyi qurumun nümayəndələri iyun ayında Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə bir daha baş çəkib:**

"Biz münaqişə nəticəsində saxlanılan şəxslərə mütəmadi baş çəkməkdə davam edirik. Mandatına uyğun olaraq BQXK saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraiti və onlarla rəftarı monitorinq etsin, həmçinin saxlanılan şəxslərə ailələri ilə əlaqə saxlamalarına şərait yaratsın".

BQKX nümayəndələri Dağlıq Qarabağda girovluqda saxlanılan Azərbaycan vətəndaşı Elnur Hüseynzadə ilə görüşüblər. E.Hüseynzadə bu ilin fevralında Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.

İ.Hüseynova girovlardan məktub gətirilib-gətirilməməsi barədə hər hansı açıqlama verməyib.

Qeyd edək ki, ötən ilin noyabrından Dilqəm Əsgərov və



Şahbaz Quliyevdən heç bir məlumat yox idi. Hüquq müdafiəçisi Əhməd Şahidov iki gün öncə "Yeni Müsavat"a müsahibəsində kəlbəcərli girovlardan 8 aya yaxındır xəbər olmadığını, nə onlarla görüş keçirilmədiyini, nə də onlardan məktub gəldiyini bildirərək bu vəziyyətin narahatlıq yaratdığını demişdi. Müsahibədən bir gün sonra BQXK-nın rəsmi nümayəndəsi iyun ayında görüş keçirildiyi açıqlamasını verdi.

**Əhməd Şahidov beynəlxalq təşkilat nümayəndəsinin açıqlamasında Dilqəm Əsgərov və Şahbaz Quliyevin səhhəti barədə heç bir fikir ifadə olunmamasının sual yaratdığını bildirdi:** "BQXK-nın nümayəndələrinin kəlbəcərli girovlarla görüşməsi müsbət addımdır. Ən azından bildik ki, görüş olub. Lakin girovların sağlamlıq durumu barədə hər hansı açıqlama olmaması bir qədər narahatlıq yaradır".

Azərbaycan Xarici İşlər Nazirliyi isə dünən Dilqəm Əsgərov və Şahbaz Quliyevin hələ də qanunsuz saxlanması barədə rəsmi açıqlama verib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev keçirdiyi mətbuat konfransında deyib ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevin hələ də qanunsuz şəkildə girov saxlanılması Azərbaycan tərəfinin hiddətinə səbəb olur.

**H. Hacıyev bildirib ki, Ermənistan onların dərhal azad edilməsi barədə tələblərə məhəl qoymur:** "Ermənistan bütün beynəlxalq konvensiyaları ciddi şəkildə pozmaqda davam edir. Bu da münaqişənin həlli ilə bağlı danışıqlara və sülh yolu ilə həll prosesinə ciddi zərər vurur. Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün bütün zəruri addımları atacaq".

Xatırladaq ki, 2014-cü ilin iyul ayında əslən Kəlbəcərdən olan Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını, doğmalarının məzarını ziyarət etmək istəyərkən iyulun 11-də Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, onlarla birlikdə olan Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# NATO gündəliyində Qarabağ - erməni məkri nəyə hesablanıb?

Həsən Ruhani alyansın sammitindən sonra Paşinyanı İrana dəvət edib - səbəb; **politoloq:** "Qarabağ məsələsi həllini tapmadan Ermənistan üçün ümidverici heç bir layihə reallaşmayacaq..."

**NATO-nun dünən Brüsseldə başlayan iki günlük sammiti Azərbaycan üçün də mühüm önəm daşıyır. Söhbət əlbəttə ki, öncəliklə dünyanın ən böyük hərbi-siyasi alyansının Dağlıq Qarabağ məsələsinə yanaşmasından gedir. Azərbaycan prezidenti İlham Əliyev və işğalçı Ermənistanın baş naziri Nikol Paşinyanın da qonaq qismində iştirak edəcəyi bu toplantıda növbəti dəfə yekun bəyannamə qəbul olunacaq və orada postsovet məkanındakı etnik-ərazi konfliktlərinin həlli prinsipləri əksini tapacaq.**




"Yeni Müsavat" xatırladır ki, ötənilki Varşava sammitində qəbul olunmuş yekun sənəddə Abxaziya, Cənubi Osetiya, Dnestryanı, Dağlıq Qarabağ və Krım məsələləri ilə bağlı Gürcüstan, Azərbaycan, Moldova və Ukraynanın ərazi bütövlüyünə dəstək ifadə edilib. O vaxt hələ baş nazir olmayan deputat N.Paşinyan bu yanaşmaya görə o zamankı prezident Serj Sərkisyanı sərt tənqid eləmişdi.

Şübhə yox ki, bu dəfə özünü "qərbyönlü", "NATO-yönlü" kimi alyansa sırımağa çalışan Paşinyan əlindən gələni edəcək, dəridən-qabıqdan çıxacaq ki, sözügedən yekun bəyannamədə Qarabağ məsələsinə ermənilərin xeyrinə özəl bur yanaşma əksini tapsın. Bu yanaşmasının qayəsində isə "öz müqəddəratını təyinetmə" hüququnun da yer aldığı məlum 3 prinsip durur. Yəni Azərbaycanın beynəlxalq hüquqla, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi isə təsbit olunmuş ərazi bütövlüyü və sərhəd toxunulmazlığının şübhə altına alınması təhlükəsi.

Buna da şübhə yox ki, həm NATO-nun aparıcı üzvlərindən olan qardaş Türkiyənin prezidenti, həm də Azərbaycan prezidenti erməni tərəfinin bu qəbildən məkrli cəhdləri və gedişlərinin qarşısını qətiyyətlə alacaqlar və yenə də Azərbaycanın maraqlarına cavab verən yekun sənəd qəbul olunacaq.

*****

Siyasi təhlilçilər, son vaxtlar, ümumiyyətlə, Nikol Paşinyanın özünü qərbyönlü kimi göstərməklə güddüyü uzaqgedən hədəflərə diqqət yönəldirlər. Təbii ki, işğalçı ölkə üçün "nəfəslik" rolu oynayan, hazırda ABŞ tərəfindən sürətlə sıxışdırılan və ağır sanksiyalara tuş gəlməkdə olan İranla münasibətlərin perspektivi də maraq doğurur. Bəs ABŞ-a, Avropaya yaxınlaşıb ciddi siyasi, maddi, hətta təhlükəsizlik dəstəyi almağa ümid edən Paşinyan hökuməti İranla ənənəvi tərəfdaşlıq münasibətlərini saxlayacaqmı?

Yeri gəlmişkən, bu arada İran prezidenti Həsən Ruhani erməni baş naziri İrana səfərə dəvət edib. Paşinyan dəvəti qəbul edib gedəcəkmi?

**Politoloq Tofiq Abbasov bu xüsusda maraqlı şərhi var (axar.az). Onun sözlərinə görə, Paşinyanın açıq-aşkar qərbyönlü siyasət yürütməsi İranda da təşviş doğurub və bu siyasəti getdikcə bütün qonşu ölkələr üçün ciddi suallar doğurur:** "Paşinyan siyasi konyukturanı elə bir tərzdə dəyişmək istəyir ki, Ermənistan staqnasiyadan (durğunluq - red.) çıxa bilsin. Bu prosesdə Ermənistanın əsas ümidi Qərbədir. Ona görə də Paşinyanın qarşıdakı görüş və məsləhətləşmələri bir çox ölkələr üçün əhəmiyyət kəsb edir".

**Ekspert bu ölkələr sırasında əsasən Rusiya, ələlxüsus da İranın adını çəkir:** "Çünki İranla Ermənistanın uzun müddətdir münasibətləri var və onlar problemlərini bir-birlərinə söykənərək həll edir, son zamanlar isə tranzit, mal dövriyyəsi ilə bağlı iqtisadi zəmində dividentlər əldə etməyə çalışırdılar. Ancaq Paşinyanın açıq-aşkar qərbyönümlü siyasət yürütməsi İranda da təşviş doğurub. Onun "məxməri inqilabı"nın zəfər çalması İranda birmənalı qarşılanmayıb. Paşinyan iki ay ərzində ABŞ-ın İrəvandakı səfiri və Avropa İttifaqının sədri ilə görüşlər keçirib və məsləhətləşmələr aparıb. Ona görə də İran Ermənistanın yeni siyasətini, o cümlədən Tehranla münasibətlərdə hansı prioritetlərə üstünlük verəcəyini Paşinyanın dilindən eşitmək istəyir. Ruhani də Nikolu İrana məhz buna görə dəvət edib".

**Lakin politoloq hesab edir ki, Ermənistanın İranla yaxın münasibətlərinə baxmayaraq, Paşinyan əsas sirlərini Ruhani ilə bölüşməyəcək.** "Ruhaninin sözügedən dəvəti əslində çox planlı bir şəkildə hazırlanıb. Hazırda İran tərəfindən bütün səylər elə bir xüsusi ardıcıllıqla təmin olunur ki, Paşinyan Brüsseldə NATO nümayəndələri ilə görüşlərindən sonra İranla dialoqda baxışlarını açıq-aydın ifadə etsin. Ancaq təbii ki, Paşinyan İranda həmin görüşlərin mahiyyətini açıq-aşkar bəyan etməyəcək. Ermənistan sözsüz ki, Qərblə yürüdəcəyi siyasətin detallarını heç Rusiya və Gürcüstana da bəlli etməyəcək. Paşinyan Qərbin yetirməsi kimi minimum məlumat verməklə daha çox iş görməyə və ölkəsinin Avropa istiqamətində inteqrasiyasını genişləndirməyə çalışacaq. Ancaq Qarabağ məsələsi həllini tapmadan Ermənistan üçün hər hansı ümidverici layihə və ya plan böyük irəliləyiş vəd etmir. Çünki Ermənistanın zəlil vəziyyətinə düşməsinin səbəbi Qarabağ müharibəsinin sona yetməməsidir. Bu baxımdan Avropa İttifaqı, ABŞ və ya başqa ölkələr İrəvana nə qədər vəd versə də, bu, təcrid vəziyyətində olan bir ölkəni xilas edə bilməz. Ermənistan daxildə də böyük risklərlə qarşı-qarşıyadır. Bu baxımdan İran siyasi elitası da Ermənistanın gələcək gedişləri ilə bağlı çox ehtiyatlı mövqe tutur. Həmçinin Rusiya da bu ruhda hərəkət edir", - deyə o əlavə edib.

*****

Söz yox ki, NATO zirvəsi və orada N.Paşinyana qarşı sərgiləncək mövqe, ediləcək jestlər, həmçinin Brüsseldə Avropa Birliyi rəhbərliyi səviyyəsində veriləcək mesaj və bəyanatlar, nəhayət, NATO-nun Yekun Bəyannaməsində əksini tapacaq Qarabağ məsələsi bir çox "i"ləri üzərinə nöqtə qoyacaq. Nikol Paşinanın Qərblə bağlı qurmaq istədiyi planların perspektivinə əhəmiyyətli aydınlıq gətirəcək. Əlbəttə ki, Rusiya amili də burada həlledici rol oynayacaq.

Qısası, ehtimal böyükdür ki, Qərb işğalçı ölkəyə real dəstəyin qarşılığında Paşinyana əməkdaşlığın konkret çərçivəsini göstərəcək. Hansı çərçivə ki, Ermənistanın yeni hakimiyyətini faktiki surətdə kritik Rusiya-Qərb seçimi qarşısında qoya bilər və hansı seçimdən ki, Paşinyan od sudan qorxan kimi çəkinir, qaçır...




## Azərbaycan XİN-dən Paşinyanın oğlu ilə bağlı açıqlama

**"Ermənistanın baş naziri Nikol Paşinyanın oğlunun Dağlıq Qarabağda hərbi xidmət keçməsi siyasi şouya çevrilib". Bunu XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

XİN sözçüsü bildirib ki, populist Paşinyan hökuməti bu yolla reytinqini və cəmiyyətdə nüfuzunu qorumağa çalışır: "Paşinyan hökumətinin yüz günü yaxınlaşır. Bu yüz gün ərzində ölkənin üzləşdiyi ciddi sosial, siyasi, iqtisadi problemlərin həlli istiqamətində işlər görmək əvəzinə, bu cür yolla öz reytinqlərini saxlamaq istəyirlər".

XİN təmsilçisi qeyd edib ki, Ermənistan vətəndaşlarının Azərbaycan ərazisində hərbi xidmətə göndərilməsi Ermənistanın təcavüzkar dövlət olmasının növbəti və açıq göstəricisidir: "Bu əməllər regionda sülhün təminatına xidmət etmir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

# Gəncə olaylarının gizli kodları: onları necə oxuyaq?

## Ümumilikdə şiəlikdə "kripto cinayət" qrupları təcrübəsi yoxdur; qətl fitvası isə konkret iki halda verilə bilər

**Gəncədə iyulun 10-da baş verənlər böyük bir provokasiyanın izlərini üzə çıxardı. Rəsmi məlumatda qeyd olunur ki, iyulun 10-da Gəncə şəhərində ictimai asayişi pozmağa cəhd göstərmiş radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabiti şəhid olub.**




Məlumatda 150-200 nəfərlik təxribatçı qrupun olduğu qeyd olunur. Qanlı cinayəti törətməkdə şübhəli bilinən iki nəfər - 1988-ci il təvəllüdlü, əvvəllər qəsdən adam öldürmə və soyğunçuluq cinayətlərinə görə məhkum olunmuş Rəşad Məmmədəli oğlu Böyükkişiyev və 1988-ci il təvəllüdlü Fərrux Xəqani oğlu Qasımov olduğu müəyyən edilib və onların tutulması üçün intensiv iş aparılır.

Əgər buna qədər Mingəçevirdə baş verən qəza və iyulun 3-də Elmar Hüseynova atəş açılması qəza və kriminal hadisə hesab olunurdusa, indi artıq bir çoxları haqlı olaraq bu hadisələrin bağlantılı olduğunu, planlı təxribat kimi qiymətləndirir. Bunun üçün bir sıra əsaslar da var.

**Açıq-aşkar təxribat**

İyulun 3-də Gəncənin icra başçısı güllələnəndə ilk günlərdə birmənalı münasibət yox idi. Hökumət qurumları və rəsmilərin açıqlamalarında hadisə kriminal cinayət, daha sonra isə radikal dini fanatik tərəfindən həyata keçirildiyi, hadisəni törədən Yunis Səfərovun Suriyada təlim keçdiyi qeyd olunurdu. Eyni zamanda sosial şəbəkələrdə hadisənin dini motivli olduğu, Y.Səfərovun icra başçısından dini zəmində qisas aldığı haqda yazılar, kollajlar paylaşılmağa başlandı.

Daha sonra məlum oldu ki, sosial şəbəkələrdə, "whatsapp" mesajları ilə xalqı iyulun 10-da Gəncənin mərkəzində etiraz aksiyasına çağırırlar. Bu aksiyanın təşkilatçısı və ya təşkilatçıları bilinmirdi. Eyni zamanda hökumətin bu aksiyaya hazırlaşdığı haqda məlumatlar yayıldı. Hətta Gəncəyə Daxili Qoşun hissəsinin və texnikanın yeridildiyini əks etdirən kadrlar yayıldı. Bu səbəbdən də bir çoxları Gəncədə hər hansı aksiyanın baş verəcəyini gözləmirdi. Lakin görünür ki, hesablar səhv olub. Təxribat işi təşkil olunmuşdu və Gəncənin mərkəzində məlum hadisə baş verdi. Belə görünür ki, rəsmi qurumlar da Gəncədə bu şəkildə təxribat olacağını gözləməyib. Polis rəislərinin hədəf olması onu göstərir ki, təxribat planı yaxşı hazırlanıb və rəsmi orqanlar buna hazırlıqlı olmayıb.

**Bu, dini hadisədirmi?**

Gəncə hadisələrini dini motivə calamaq cəhdləri var. Hadisələrin arxasında din və İranın olması ilə bağlı rəsmi qurumlar olmasa da, mediada və ayrı-ayrı şəxslərin dilindən iddialar var. Əlbəttə, Yunis Səfərovun dindar olması və iyulun 10-da Gəncədə polisləri vurarkən "Allahu Əkbər" şüarı səsləndirilməsi ilə bağlı dəlillər var.

Ancaq Səfərovun və ya polisləri qətlə yetirən şəxslərin dindar olması bu hadisənin dini başqaldırma olmasını demək üçün əsas vermir. Əksinə, bu hadisələrdə dinin açıq-aşkar gözə soxulması məqsədli ola bilər. Mümkündür ki, bu hadisəni hazırlayanlar əhalinin dini həssaslığı, dindarların narazılığı amilini bildikləri üçün bu hadisəyə dini rəng qatılmasında maraqlı olublar.

Bu hadisələrə dini zəmində provokasiya demək üçün bir sıra faktorlar olmalıdır. İlk növbədə dini çağırış, fətva olmalıdır. Gəncə hadisəsi ilə bağlı elə bir çağırış yoxdur. Nə sui-qəsd zamanı, nə də ondan əvvəl Yunis Səfərovun bu hadisə ilə bağlı çıxışı, çağırışı, dini qisas haqda bir açıqlaması yoxdur. Eyni zamanda dünənki qətllə bağlı da hansısa bir çağırış olmayıb. Məsələn, Yaxın Şərqin müsəlman ölkələrində dini zəmində hadisələr planlaşdırılanda əvvəlcə bunun videosu çəkilir, müraciəti hazırlanır, prosesin özü bir teatrlaşdırılır. Amma Gəncədə bunların heç biri yoxdur. Gəncə hadisələrində əsas ittiham olunan şəxsin dindar olması və polislər qətlə yetirilərkən dini şüar səsləndirilməsi faktı var. Bu isə qeyd etdiyimiz kimi, provokasiya ola bilərdi.

Amma bunlar hadisələrin din uğrunda olduğunu deməyə əsas vermir. Ümumilikdə şiəlikdə bu cür kripto cinayət qrupları təcrübəsi yoxdur. Qətl isə konkret iki halda verilə bilər. Birincisi mühakimə ilə - bu, edamdır. İkincisi isə xüsusi hallarda dini liderlər qətl fətvası verə bilərlər.

İranla bağlı onu demək olar ki, İslam Respublikasında Azərbaycana qarşı düşmən qüvvələr olsa da, hazırkı halda bu cür hadisələri açıq izlərlə törədib məsuliyyəti üzərinə götürmək Tehranın maraqlarına cavab vermir. Qətlin üzərində İranın "əl izinin" qalması onun maraqlarına cavab verə bilməz. Gəncədə baş verən iğtişaşlar ən uzağı Azərbaycanın qərb regionunda aksiya və xaosa gətirə bilər. Ancaq bunun əvəzində Bakı və Tehran arasında ciddi münaqişə yarana bilər. Bu isə indiki zamanda Tehranın maraqlarına cavab vermir. Üstəlik, Azərbaycanda sabitliyin pozulması Tehranın özü üçün ciddi risk daşıyır.

**Ölkədə din sahəsi nəzarətdədirmi?**

Gəncə hadisələri bir ziddiyyəti ortaya qoydu. Hakimiyyət orqanları ilk günlərdən başlayaraq bu hadisənin dini zəmində, din şüarı ilə edildiyini qeyd etdilər. Bu isə həm də son illərdə Azərbaycanda dini sahədə vəziyyətin nəzarətdə olması ilə bağlı təbliğatı puça çıxarır. Belə çıxır ki, vəziyyət deyildiyi kimi olmayıb. Dövlət qurumları ölkənin ikinci böyük şəhərində dini situasiyanı nəzarətdə saxlaya bilməyib.

Yeri gəlmişkən, bu hadisələr həm də göstərdi ki, bir sıra dövlət qurumları həm informasiya axını, həm də qiymətləndirmək baxımından situasiyanı nəzarətdə saxlaya bilmir. Çevik reaksiya, operativ iş aparılmır. Bu isə nəinki indiki situasiyada, ümumilikdə müharibə vəziyyətində olan ölkə üçün çox təhlükəlidir. Ümumilikdə son Mingəçevir hadisələrindən sonra baş verənlər göstərdi ki, bəzi dövlət qurumlarının çevikliyi, operativ reaksiya və qərar qəbul etmələri ilə bağlı müəyyən sıxıntılar var. Bu sahədə ciddi işlər görülməlidir. Qəza və təxribatlar bir sıra əskikləri ortaya çıxardı.

Ortaya çıxan əsas pozitiv nüans isə budur ki, bütün cəhdlərə baxmayaraq Gəncə camaatı və inanclıların böyük əksəriyyəti bu təxribat və təhriklərə uymadı.

**Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Gəncədə polisləri qətlə yetirənlərdən biri öz anasını öldürübmüş

## Gəncədə yüksək rütbəli polis zabitlərini qətlə yetirdiyinə görə axtarışa verilən şəxslərlə bağlı bəzi təfərrüatlar bəlli olub

**Respublika Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı birgə məlumatda 1988-ci il təvəllüdlü Rəşad Məmmədəli oğlu Böyükkişiyevin əvvəllər qəsdən adamöldürmə və soyğunçuluq cinayətlərinə görə məhkum olunduğu bildirilib.**



"Google" axtarış sistemində apardığımız kiçik araşdırma zamanı məlum olub ki, Rəşad Böyükkişiyev öz doğma anasını qətlə yetirdiyinə görə həbsdə olub. APA-nın 17 iyul 2007-ci ildə yaydığı xəbərdə oxuyuruq: "Gəncə şəhərində ailə-məişət münaqişəsi zəminində qətl hadisəsi törədilib. Gəncə şəhər prokurorunun köməkçisi İbrahim Həsənovun APA-nın qərb bürosuna verdiyi məlumata görə, 19 yaşlı Rəşad Məmmədəli oğlu Böyükkişiyev öz anasını bıçaqlayaraq öldürüb.

Onun sözlərinə görə, gecə saat 02:30 radələrində təqsirləndirilən Rəşad Böyükkişiyev öz yaşadığı Həsən Əliyev küçəsi, 1-ci döngə, ev 17-də 1966-cı il təvəllüdlü anası Flora Əhəd qızı Böyükkişiyevanı bıçaqlayıb.

İ.Həsənov istintaq davam etdiyindən, hadisənin təfərrüatı barədə heç bir məlumat verməyib. Prokuror köməkçisi qeyd edib ki, Rəşad hadisəni törətdikdən sonra könüllü olaraq polisə təslim olub. Faktla bağlı Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb".

Həbs müddəti bitdikdən sonra Rəşad Böyükkişiyev Rusiya Federasiyasına gedib. Lakin orada da azadlıqda çox qala bilməyib. Həbsdən çıxdıqdan cəmi 9 ay sonra Rusiyada soyğunçuluq törədib. Nəticədə 14.07.2015-ci il tarixdə Rusiya Federasiyası CM-in 161.2 maddəsi ilə (soyğunçuluq) 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Gəncədə polis zabitini qətlə yetirən digər şəxs - Fərrux Xəqani oğlu Qasımovun (iyulun 11-də o, tutularaq istintaqa təhvil verildi-red.) facebook sosial şəbəkəsindəki paylaşımlarından görünür ki, şiə məzhəbli radikal dindardır. Ötən ilin oktyabrında paylaşdığı şəkillərdən birinin altında isə dostlarından biri "Sən axtarışdasan" şərhini yazıb.

F.Qasımovun ən son paylaşımı ötən ilin oktyabrında olub.

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" QSC-nin (AzTV) sədri Arif Alışanov və ailə üzvlərinin adının hallandığı proses davam edir. Sonuncu məhkəmə prosesində Arif Alışanovu, qızı Nigarı, sürücüsü Hacı Babayevi və bacısı oğlu Dəyanət Cəfərovu öldürməyə cəhddə suçlanan dörd nəfərə 57 il həbs cəzası istənilib.**

# Milyonlarla manat korrupsiyada suçlanan Alışanovu azadlıqda saxlayan səbəblər...

## Hüquqşünas: "Onun hər hansı bir cinayətdə əli varsa, bunun üçün ayrıca istintaq olmalı idi"

Prokuror konkret Şücayət Əkbərova 18 il, Qoçalı Cəbiyevə 16 il, Zöhrab Şirinova 17 il, Aqşin Hüseynova isə 6 il həbs verilməsini təklif edib. Təqsirləndirilən şəxslər isə ittihamı qəbul etmir, istintaq dövründə işgəncə altında etiraf ifadələri verdiklərini deyirlər. Prokuror bildirib ki, məhkəmədə konkret sübutlar və başqa şahid ifadələri ilə onların günahı sübuta yetirilib. Təqsirləndirilən dörd nəfərdən yalnız biri - Aqşin Hüseynov özünü qismən təqsirli bilib. Ona da ancaq qanunsuz silah saxlama ittihamı verilib. Digər üç nəfər - Ş.Əkbərov, Q.Cəbiyev və Z.Şirinov iddia ediblər ki, Aqşinə onların üzünə durmaq müqabilində daha yüngül cəza vəd olunub. Ş.Əkbərovun özü, keçmiş həyat yoldaşı və qızının adına olan bir sıra əmlakların üzərinə həbs qoyulub. Prokuror həmin əmlakların müsadirə olunmasını və Alışanova dəymiş ziyanın ödənməsinə yönəldilməsini istəyib.



A.Alışanovun bacısı oğlu və sürücüsü də zərərçəkmiş qismində tanınıb. Ardınca onlar çıxış edib və prokurorun fikirləri ilə razılaşdıqlarını bildiriblər. Amma hər ikisinin əlavə bir istəyi olub. Onlar təqsirləndirilən şəxslərdən A.Hüseynovun səmimi ifadə verdiyini qeyd edərək, ona yüngül cəza verilməsini istəyiblər.

**A.Alışanovun vəkili və məhkəmədə nümayəndəsi Zaur Abbasov deyib ki, təqsirləndirilən şəxslərdən Aqşin istisna olmaqla, digər üçü səmimi ifadə verməyiblər, əməllərindən peşman deyillər:** "Üstəlik, məhkəmədə Arif Alışanovun ünvanına nalayiq ifadələr səsləndiriblər. Arif Alışanov onlardan şikayətçidir. Ona görə də prokurorun istədiyi cəza ilə razılaşırıq. Mülki iddianın da təmin olunmasını istəyirik".

Vəkilinin sözlərinə görə, A.Alışanovun Aqşinə qarşı şikayəti yoxdur. Ona yüngül cəza verilməsini istəyir.

Məsələ burasındadır ki, Alışanovun özünə qarşı da kifayət qədər sərt ittihamlar səsləndirilib, o, milyonlarla manat mənimsəməkdə, hətta bir qızın ölümündə günahlandırılıb. Lakin bütün bunların müqabilində Alışanov suçlanmır, öz işinin başında, fəaliyyətinə davam edir. Bildirilir ki, Alışanovun istifadəsində olan şəxsi avtomobilinin qiyməti 300 min manatdır.

İttihamlara görə, Arif Alışanov 2007-ci ilin ortalarında Şamaxı rayonunda torpaq almaq qərarına gəlib və bu məqsədlə rayonun Nağaraxana kənd sakini Şücayət Əkbərovla tanış olub, aralarında yaxşı münasibət yaranıb. 2012-ci ildə Alışanov qardaşı Habili, yeznəsi Vidadi Cəfərovu, qayınları - Etibar, Natiq Bağırovları da kənd təsərrüfatı ilə məşğul olmağa, yəni ortaq biznesə cəlb edib, torpaqların yerli sakinlərdən satın alınmasında Şücayət Əkbərovdan kömək istəyib. Baş tutmayan bu biznesə 2012-ci ildən 2016-cı ilədək hissə-hissə qardaşı Habil 200 min manat, yeznəsi Vidadi 200 min manat, qaynı Etibar 1 milyon 800 min manat, digər qaynı Natiq 3 milyon 500 min manat, özü isə 500 min manat və ümumilikdə isə 6 milyon 200 min manat qoyaraq kənd təsərrüfatı və turizmlə məşğul olmaq qərarına gəliblər. Bu sövdələşmədən sonra Alışanov Ş.Əkbərovdan 50 hektar torpaq sahəsi üçün 1 milyon 5 min manat alıb. 2014-cü ilin fevralında Ş.Əkbərov 3 hektar 48 sot torpaq üçün 174 min manatı mənimsəyib.

AzTV sədri ifadəsində bildirib ki, Şücayət Əkbərov 2016-cı ilin dekabrından Mədrəsə qəsəbəsində SSRİ vaxtında tikilmiş hansısa hovuzu göstərmək istədiyini və təsvir etdiyinə görə suvarma işlərində gələcəkdə problem olmaması üçün həmin su hovuzuna baxıb almalı olduqlarını ona deyib. "Həmin vaxt Şücayətin bu təklifini normal qarşıladım. Hazırda isə anlayıram ki, Şücayət çölün düzündə olan sahəyə məni aparıb qətlə yetirmək istəyib. Lakin biz həmin yerə gedib baxa bilmədik... Sonradan Şücayət Əkbərovun məni, bacım oğlu Dəyanət Cəfərovu bir neçə dəfə qətlə yetirmək istədiyi məlum oldu".

Alışanovun özünün də bir qız uşağının qətlində iştirak etməsi, milyonları mənimsəməsi ilə bağlı mətbuatda məlumatlar dərc olunmuşdu. Lakin bütün bunların müqabilində ona cinayət işi açılmadı.

**Hüquqşünas Əsabəli Mustafayev "Yeni Müsavat"a bildirib ki, hazırkı proses Alışanova qarşı sui-qəsdə aiddir və ona görə də onun özünün həbs edilməsi gözlənilmir:** "Alışanovun işini məhkəmə yox, istintaq orqanı araşdırmalıdır. Çünki məhkəmədə olan iş Alışanova qarşı sui-qəsdlə bağlıdır. Ancaq məhz Alışanovun hər hansı bir cinayətdə əli varsa, bunun üçün ayrıca istintaq olmalı idi. Ancaq bu, baş vermədi. Ona görə də məhkəmədə qeyd edilən məsələdən danışılmır. Alışanovun həbsi hazırkı şəraitdə gözlənilmir. Ancaq kimlərsə ittiham edirlərsə ki, Alışanov qadının ölümündə günahkardır, o zaman həmin şəxslər iddia ilə prokurorluğa şikayət edib, vəkil tutmalıdırlar. Bundan sonra işi davam etdirməlidirlər. Bugünkü gündə məhkəmədə yalnız Alışanova qarşı cinayət istintaq olunur".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bu il məktəblərdə şagird sıxlığı olacaqmı-rəsmi mövqe

## Bakı Şəhər üzrə Təhsil İdarəsi yeni məktəblərin tikildiyini deyir; bəs məktəblərdə növbəli tədris?

**Bir həftə əvvəl ümumilikdə "Təhsil haqqında" Qanunun 21 maddəsinə 60-dan artıq dəyişiklik edildi. Belə ki, bu ildən etibarən hər ilin sonunadək 6 yaşı tamam olanlar da valideynlərinin müraciəti əsasında məktəbə gedə biləcək.**



Maraqlıdır, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 31 məktəbdə sıxlığın müşahidə olunduğunu nəzərə alsaq, bu qərar Bakı məktəblərində mövcud olan bu sıxlığı daha da artırmayacaq ki?

**Bakı Şəhər üzrə Təhsil İdarəsinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov bildirir ki, bu dəyişiklik məktəblərdəki şagird sıxlığına ciddi təsir etməyəcək:** "6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olacaq uşaqların sayı I sinfə qəbul olunan şagirdlərin sayından o qədər də çox olmadığına görə məktəbdəki şagird sıxlığına ciddi təsir edəcəyi gözlənilmir. Qeyd edim ki, ötən il Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərinə 6 yaşı cari ilin sentyabrın 16-dan dekabrın 31-dək tamam olan uşaqların I sinfə qəbulu üzrə 1 640 nəfər müsabiqədən keçib. Bu isə I sinfinə şagird qəbulunun ümumilikdə 4 faizini əhatə edir".

**Sektor müdiri onu da qeyd edir ki, hazırda şagird sıxlığının azaldılması üçün bəzi rayonlarda yeni məktəblər tikilir:** "Sabunçu rayonu, Savalan yaşayış massivi və Yeni Yasamal yaşayış massivində yeni məktəbin tikintisi, həmçinin Binəqədi rayonu 179 nömrəli tam orta məktəb üçün yeni korpusun tikintisi davam edir. Bundan əlavə, "2014-2016-cı illər Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair" Dövlət Proqramında Sabunçu rayonu Anaşkin küçəsi, Maştağa qəsəbəsi Subtropik sovxozu adlanan ərazi və B.Bağırov küçəsində, Sabunçu rayonu Zabrat-Kürdəxanı yaşayış massivi, Suraxanı rayonu Hövsan qəsəbəsi Quşçuluq sovxozu, Qaradağ rayonu Qızıldaş qəsəbəsi Şonqar yaşayış massivində yeni məktəb binalarının tikilərək istifadəyə verilməsi nəzərdə tutulub".

Bakı məktəblərindəki mövcud şagird sıxlığına görə bir çox məktəblərdə 2, bəzən də 3 növbəli təhsil var. Təhsil eksperti Kamran Əsədov bildirir ki, səhər dərsə gedən uşaqlar müəllimin izah etdiyi dərs proqramını daha tez qavrayır: "Dünya təhsil təcrübəsinə görə deyə bilərəm ki, birinci növbədə təhsil almaq uşaqlar üçün daha faydalıdır. Bu, həm də səhər saatlarında işə gedən valideynlərin uşaqları dərsə təhlükəsiz aparması və gətirməsi kimi məsələlərə də təsir göstərir. Pedaqoji araşdırmalara əsasən, qeyd edim ki, səhər dərsə gedən uşaqlar müəllimin izah etdiyi dərs proqramını daha tez qavrayır, nəinki günorta vaxtı. İbtidai siniflər üzərindəki uzunmüddətli müşahidələrim əsasında deyə bilərəm ki, səhər növbəsində oxuyan uşaqların əlavə təlimə, məşğuliyyətə marağı olur. İkinci növbədə isə məktəbdə şagirdlər üçün müəyyən kurslar, təlimlər, valideyn və müəllim heyəti üçün iclaslar təşkil oluna bilər. Bu baxımdan tədris müəssisələrinin birnövbəli olması daha məqsədəuyğundur".

**K.Əliyevin sözlərinə görə, ümumilikdə tədrisin ikinövbəli olmasının mənfi tərəfləri çoxdur:** "Belə ki, şagird üçün gün yarıya bölünür. İkinci növbə dərs həm uşaqlara, həm də valideynlərə xoş təsir bağışlamır. Çünki valideynin iş qrafikində qarma-qarışıqlıq yaranır. Statistik göstəricilər əsasında deyə bilərəm ki, məktəbdən yayınma halları əsasən ikinci növbədə təhsil alan şagirdlər arasında müşahidə olunur. Valideyn həmin ərəfədə işdə olur və övladına nəzarət edə bilmir. Düzdür, uşaqların, əsasən də ibtidai siniflərdə təhsil alan şagirdlərin səhər saat 8-də dərsdə olması, onların oyanmasında çətinlik yaradır. Amma bu müvəqqəti olaraq baş verir. Şagirdlərin inkişafı üçün onların erkən oyanması vacibdir".

**Təhsil eksperti hesab edir ki, sıxlıq yaşayan məktəblər bu problemlər üzrə növbəli etməklə həll edə bilərlər:** "Belə ki, bir tədris ilində səhər saatlarında oxuyan şagirdlər, növbəti ildə günorta saatlarında dərsə getsinlər. Azərbaycanın ümumtəhsil məktəblərində yeni məktəblərin tikilməsi hesabına ikinövbəli təhsil sistemindən imtina etmək lazımdır. Düşünürəm ki, respublikanın bütün məktəbləri üzrə birnövbəli və beş günlük təhsil həftəsinə keçmək lazımdır. Bu, həm şagirdlərin asudə vaxtlarının yaranmasına, həm də vahid tədris müddətinin formalaşmasına gətirib çıxaracaq. Qeyd etdiyim məsələnin həll olunması üçün bu sahədə uzun müddət araşdırma apardım. Və qeyd olunun problemin həll olunması üçün 6500 yeni məktəb, 730 məktəb üçün korpuslar, 2000 məktəbin isə təmir etdirilməsi lazımdır. Son 10 il ərzində 3 min məktəbin tikilməsi və ya təmir edilməsi şagird sıxlığını kəskin şəkildə azaldıb".

**Təhsil Nazirliyindən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirilir ki, məktəblərdə ikinövbəli təhsil zərurətdən yaranır:** "Biz də istəyərik məktəblərimizdə birnövbəli təhsil olsun. Amma vəziyyət belədir ki, məcburiyyətdən bir çox məktəblərdə ikinövbəli təhsil var".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**




## "Yuxarı yaşda olanların heç biri dövlət qulluğu imtahanında uğur qazana bilməyib"- DİM

**Dövlət İmtahan Mərkəzi (DİM) 30 iyunda inzibati icraçı vəzifələrə (B növü) aid olan vəzifə qrupları üzrə keçirilən imtahanda iştirak etmiş namizədlərin yaş kateqoriyası və gender aspektləri haqqında statistik məlumatları açıqlayıb.**

DİM-dən verilən məlumata görə, imtahanda iştirak etmək üçün qeydiyyatdan keçən namizədlərin 807 nəfəri kişi, 569 nəfəri isə qadın olub.

Qeydiyyatdan keçən namizədlərdən kişilər üzrə 714 nəfər (qeydiyyatdan keçənlərin 88.5%-i), qadınlar üzrə isə 512 nəfər (qeydiyyatdan keçənlərin 90%-i) 20-34 yaş intervalında olanlardır. Ən yuxarı yaş qrupu (60-64 yaş intervalı) üzrə qeydiyyatdan keçənlərin 1-i kişi, 1-i isə qadındır. Lakin yuxarı yaş intervalına aid kişi və qadın namizədlərin heç biri imtahanda uğur qazana bilməyib. Ümumiyyətlə, imtahanda iştirak edən 45 yaşdan yuxarı namizədlərdən yalnız 5 nəfəri (3 kişi, 2 qadın) imtahanı uğurla keçib.

Ümumilikdə imtahanda müvəffəqiyyət əldə edən kişi və qadınların 188 nəfəri (96 kişi və 92 qadın) 20-24 yaş intervalında olan namizədlərdir. Bu yaş qrupu üzrə imtahandan iştirak edən kişilərin 40.5%-i, qadınların isə təqribən 54.4%-i müvəffəqiyyət əldə edib.

25-29 yaş intervalında isə 226 nəfər (127 kişi və 99 qadın) lazım olan balı toplaya bilib.

İmtahanda uğur qazanan namizədlərin 482 nəfəri, yəni təqribən 95%-i yaşı 34-ə qədər olan insanlardır. Bu göstərici 22 aprel tarixində keçirilən imtahanda da təxminən eyni idi (96%). Bu onu göstərir ki, imtahanlarda uğur əldə edən namizədlər əsasən gənclərdir. Yaş intervalı artıqca uğur əldə edənlərin faizi aşağı düşür.

35-64 yaş intervalında olan və imtahanı uğurla keçən namizədlərin sayı 26 nəfərdir.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1376 namizəddən 508 nəfəri (36.9%) müvəffəqiyyət əldə edib.

## Miqrasiya Məcəlləsinə dəyişikliklər təsdiqləndi




**Azərbaycan prezidenti İlham Əliyev Miqrasiya Məcəlləsinə dəyişiklikləri təsdiqləyib. APA-nın məlumatına görə, Miqrasiya Məcəlləsinə 16.4-cü maddə əlavə edilib.**

Maddəyə əsasən, Məcəllənin 16.1.8-ci maddəsində nəzərdə tutulmuş şəxslər cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödədikdə, onların Azərbaycan Respublikasına gəlməsi ilə bağlı qadağa dərhal götürülür.

36.1.6-cı maddədə "dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (qeyri-dövlət təşkilatları üçün), dəvətin səbəbini təsdiqləyən sənəd (tranzit, turizm, rəsmi və şəxsi səfər vizaları üçün bu sənədlər tələb olunmur)" sözləri "(tranzit və turizm vizaları üçün bu sənəd tələb olunmur)" sözləri ilə əvəz edilib.

Habelə aşağıdakı məzmunda 54.11-1-ci maddə əlavə edilib: "Daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtinaya səbəb olan hal aradan qalxmazsa və bu hal müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina üçün əsas deyildirsə, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması (müddətinin uzadılması) ilə bağlı bu Məcəllənin 54.11-ci maddəsində nəzərdə tutulan müddətdə müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər".

79.2-ci maddəyə isə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilib: "Bu Məcəllənin 79.1.1-ci maddəsində nəzərdə tutulmuş sənədlərin ləğv edilməsinə səbəb olmuş əsaslar aradan qalxdıqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə gəlməsinə qoyulmuş məhdudiyyət götürülür".

# Ətraf mühitin qorunması istiqamətində sosial-iqtisadi tədqiqatlar aparılacaq





**Bakıda Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələrinin və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti ilə Almaniya Federativ Respublikasının Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) arasında anlaşma memorandumu imzalanıb.**

"APA-Economics"in məlumatına görə, anlaşma memorandumunu Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələrinin və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin rəisi Mirzə Əliyev və GİZ-in proqram direktoru Hans-Yoaxim Lipp imzalayıblar.

Memorandum 3 il müddətinə imzalanıb və Almaniya hökumətinin həyata keçirdiyi "Cənubi Qafqazda təbii resursların idarə olunması və kənd yerlərinin davamlı inkişafı üçün ekosistem xidmətlərinin mühafizəsi" layihəsinin icraya başlaması ilə qüvvəyə minəcək.

Memorandumun məqsədi torpaqdan əsas istifadə sistemi olaraq kənd təsərrüfatına xüsusi diqqət yetirilməsi, təbii resursların səmərəli və davamlı idarə edilməsinin gücləndirilməsi, biomüxtəlifliyin və regionda mühüm ekosistem xidmətlərinin qorunmasıdır. Anlaşma ilə tərəflər "Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə yer alan ətraf mühitin qorunması və dayanıqlı kənd təsərrüfatının inkişafı ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində əlaqələrin qurulmasına zəmin yaradıblar.

**M. Əliyev bildirib ki, bu memorandum xidmətə dünyanın ən inkişaf etmiş ölkələrindən birinin - Almaniyanın təcrübəsini kəndlinin ən böyük neməti olan torpağın qorunması üçün istifadə etmək imkanı verəcək:** "Dövlət Xidməti və GİZ məlumat bazalarının strukturunun, istifadəsinin və məzmununun konsolidasiyası, aqrobiomüxtəliflik və ətraf mühitin qorunması istiqamətində birgə sosial-iqtisadi tədqiqatların aparılması, mövcud normativ sənədlərin qiymətləndirilməsi, mütəxəssislərin bilik və bacarıqlarının artırılması və başqa bu kimi fəaliyyətlərdə birgəlik nümayiş etdirə biləcək".

**Hans-Yoaxim Lipp isə qeyd edib ki, Anlaşma Memorandumunun imzalanması ilə ətraf mühit sahəsində mövcud olan uzunmüddətli Alman-Azərbaycan əməkdaşlığı davam etdiriləcək və möhkəmləndiriləcək:** "Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi kənd təsərrüfatının və otlaqların davamlı və biomüxtəliflik yönümlü inkişafı üçün 3 illik layihənin dəstəklənməsinə öz razılığını verib. GİZ təşkilatı Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə bu layihəni Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin tapşırığı ilə icra edəcək. Layihə kənd təsərrüfatı məhsullarının istehsalı üçün ətraf mühit mövzularının əhəmiyyəti baxımından hüquqi çərçivənin təkmilləşdirilməsini, aktual məlumatların verilməsini, kənd yerlərində pilot tədbirlərin icrasını və mütəxəssislərin təlimi və təkmilləşdirilməsini, həmçinin ictimaiyyətlə işi dəstəkləyir".

### Elan

**Ağdaş şəhər sakini Məmmədov Əhməd Afiq oğlunun adına olan H.Əliyev prospekti 126 B/2 A ünvanında torpaq sahəsinin RX 0846777 saylı çıxarışı itdiyi üçün etibarsız sayılır.**

bakcell

## "Bakcell"in dəstəyi ilə əlilliyi olan insanlar üçün innovativ 3D protezləri hazırlanacaq

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti əlilliyi olan insanların reabilitasiya imkanları ilə təmin edilməsinə yönəlmiş növbəti innovativ layihəyə start verir.**

**İnnovasiyaları tək mobil telekommunikasiya sahəsinə deyil, insanların gündəlik həyatına da qatmaq niyyətində olan "Bakcell" "Reabilitasiya Akademiyası" adlı yeni layihənin icrasına dəstək göstərir.**

**Layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq XXI əsrin ən innovativ texnologiyaları və xüsusilə 3D printerin köməyi ilə daha rahat reabilitasiya vasitələrinin hazırlanması (protez, ortez və digər köməkçi vasitələr) nəzərdə tutulub. Yeni layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilati dəstəyi ilə "Müstəqil Həyat Tərzi" Əlillərə Dəstək İctimai Birliyi tərəfindən həyata keçirilir.**

**ƏƏSMN-nin nəzdində fəaliyyət göstərən Protez-Ortopedik Reabilitasiya Mərkəzinin ekspertləri ilə birgə 3D printerin köməyi ilə mövcud baza protezləri təkmilləşdirilərək yeni 3D protezləri və digər köməkçi qurğuların test variantı istehsal ediləcək, eyni zamanda əl və ya ayağı amputasiya olunmuş insanlar üçün mexaniki protezlər hazırlanacaq. Həmçinin, layihə çərçivəsində Uşaq Serebral İflic (USİ) və digər ağır formalı əlilliyi olan uşaqlara köməkçi texniki vasitələrin istehsalı üçün emalatxananın yaradılması nəzərdə tutulub. Burada USİ olan uşaqlara bel və ayaq uçun fiksatorlar düzəldiləcək.**

**"Müstəqil Həyat Tərzi" Əlillərə Dəstək İB hazırlanmış protezləri sınaqdan keçirəcək və gələcəkdə onlardan daha geniş istifadə olunması ilə bağlı tədbirlər həyata keçirəcək.**

**Azərbaycan Respublikasında ən genişmiqyaslı Korporativ Sosial Məsuliyyət Proqramlarından birini fəal şəkildə həyata keçirən "Bakcell" şirkəti, xüsusi qayğıya ehtiyacı olan insanların sosial rifahının yaxşılaşdırılması üçün daim yeni imkanlar axtarır və əlilliyi olan vətəndaşların və xüsusilə də, uşaqların cəmiyyətə uğurlu inteqrasiyasına kömək edə biləcək layihələri və xeyriyyə təşəbbüslərini dəstəkləyir.**

YENİ MÜSAVAT
N 149 (7038) 12 iyul 2018



# Modriç- müharibə çocuğu, meydanda dağıdıcı və...

## Dünyanın ən yaxşı yarımmüdafiəçisi olan xorvatiyalı ailəcanlı adamdır, həmkarlarından fərqli olaraq gecə klublarında əylənməyi sevmir...



**Xorvatiya milli komandasının yarımmüdafiəçisi Luka Modriç Rusiyada başa çatmaqda olan dünya çempionatının ən yaxşı oyunçuları sırasındadır. Onu rəqib komanda üçün "dağıdıcı", öz komandası üçün isə "yaradıcı" yarımmüdafiəçi də adlandırırlar. Bu gün onun haqqında maraqlı bilgiləri oxucularla paylaşırıq.**

### Müharibə çocuğu

Eduard Modriç 1985-ci ilin 9 sentyabrında Xorvatiyanın Zadar şəhərində anadan olub. 1990-cı illərin Yuqoslaviya müharibələri zamanı Lukanın ailəsi Zatona köçmək məcburiyyətində qalıb. Onun babası hərbi əməliyyatlar zamanı ələ keçib və güllələnib. Həm müharibəni, həm babasının başına gələnləri ondan gizlədiblər.

Atası ordudan döndükdən sonra Luka yerli idman akademiyasında futbol oynamağa başlayır. Çətin vaxtlara baxmayaraq, Modriçin atası pulunun bir hissəsini maaşından ayıraraq oğlunun yaxşı məşq etməsinə şərait yaradır.

2002-ci ildə 16 yaşlı Luka ilə Zaqrebin "Dinamo" klubu maraqlanır və elə həmin ilin iyununda onunla müqavilə imzalanır. Luka "Dinamo"da öncə gənclərdən ibarət komandasında meydana çıxır. Bir il sonra "Dinamo" rəhbərliyi Lukanı "Zrinski" klubunda icarə müqaviləsi ilə transfer edir. Luka Bosniya və Herseqovina çempionatının 2003/2004 mövsümündə universal oyun stili göstərir və Bosniya Premyer-Liqasının "Ən yaxşı oyunçusu" olur. 2004-cü ildə Modriç Xorvatiyanın "İnter" klubuna keçib. Bu klubda da məhsuldar oynayan Modriç həmin mövsümdə "İnter"in heyətində Xorvatiya çempionatında gümüş medalını qazanır. Bu isə kluba UEFA kubokuna bilet demək idi. Elə həmin mövsüm o,



"Xorvatiyanın Futbol Ümidi"adına layiq görülür. 2005-ci ilin əvvəlində Zaqreb "Dinamo"su Modriçi yenidən kluba qaytarıb. Luka tezliklə "Dinamo"nun əsas heyətində özünə yer tutmağı bacarıb. Sonrakı üç mövsümdə də Zaqreb komandasında qalan Modriç 112 oyunda meydana çıxır və 31 qol vurur.

2007-ci ildə Zaqreb "Dinamo"su Xorvatiya çempionluğunu bayram edir. Elə həmin il klub Xorvatiya kubokunu da qazanır. Luka Modriç isə Xorvatiyanın ən yaxşı futbolçusu adına layiq görülür. "Dinamo" UEFA kubokunda pis nəticə göstərmir, 2008-ci ildə 1\4 finaladək yüksəlir. Modriçin Avropa meydanlarındakı parlaq oyunu bir sıra klubların dərhal diqqətini çəkir.





### "Tottenhem" yolçuluğu

Bu diqqət onunla nəticələnir ki, 2008-ci ilin aprelində Modriç İngiltərənin "Tottenhem" klubu ilə müqavilə imzalayır. "Totenhem" Modriçə 6 ilik müqavilə və 16,5 milyon avro təklif edir. Bu, 2007-ci ildə Darren Bentin alınmasından sonra "Tottenhem" üçün rekord transfer ödənişi hesab olunurdu. Modriç klubun heyətində ilk oyuna "Norviç City"yə qarşılaşmada çıxır. "Tottenhem" bu matçda 5: 1 hesabı ilə qalib gəlib və Luka 45 dəqiqə meydanda olur. Avqustun 16-da oynadığı ilk rəsmi matçda "Tottenhem" "Midlsbro" klubuna uduzur. Modriç həmin oyunda hücumameyilli yarımmüdafiə xəttində ilk dəfə özünü sınayır. Amma Modriç kluba transfer olmamamışdan "Tottenhem"in turnir vəziyyəti kifayət qədər qəliz idi. Bu vəziyyətdə isə əsas tənqid hədəflərindən biri Modric idi.

Tezliklə komandanın baş məşqçisi Xuanda Ramos işdən çıxarılır və "Portsmut"un sabiq texnik direktoru Harri Redknapp "Tottenhem"ə baş məşqçi gətirilir. Onun gəlişi ilə klubun vəziyyəti yaxşılaşdı. Redknapp əsas oyunu Luka Modriçin üzərində qurmaq niyyətində idi. Modriç tədricən mərkəz yarımmüdafiəçi mövqeyində möhkəmlənir. Modriç "Stoke City" və "Çelsi"yə qarşı oyunlarda özünü ən yaxşı tərəfdən göstərməyə nail olur. "Tottenhem"də ilk rəsmi qolunu Modriç Moskva "Spartak"ilə qarşılaşmada vurur, matç bərabərliklə sona çatır (2: 2). Üç gün sonra Modriç, nəhayət, Premyer-Liqada da ilk qolunu vurur.

"Tottenhem" 2010/2011-ci illər mövsümündə dördüncü yeri tutur və tarixində üçüncü dəfə Çempionlar Liqasında oynamaq şansı qazanır. 2010-cu ilin sentyabr ayında "Tottenhem" Modriçə daha 6 il müddətinə müqavilə təklif edir və qiyməti iki qat artırır. Artıq "Tottenhem"in heyətində Qaret Beyldə vardı və o, Modriçlə əla ikili kimi oynayırdılar. 2011-ci ildə Modriç və Beyl "Tottenhem"in əzəli rəqiblərindən olan "Arsenel"la qarşılaşmada komandasının 2:1 hesablı qələbəsini təmin etdilər.

Modriç "Tottenhem"də oynadığı son mövsümdə 6 qol vurdu və 8 qol ötürmə etdi. Həmin il klub Çempionlar Liqasının 1\4 finalına çıxdı. Yarımfinalda "Tottenhem" Modriçin gələcək klubu olan "Real"la qarşılaşdı. "Real" iki oyunda "Tottenhem"in qapısından beş top keçirərək Modriçin klubuna heç bir şans vermədi.

Avropa çempionatından əvvəl Madrid klubu Luka Modriçi transfer etmək istəyirdi və bu istəkləri alındı. 2012-ci ilin avqustunda "Real"Modriçlə 5 illik müqavilə imzalayır. İspan klubu "Tottenhem"ə bu transfer üçün 33 milyon funt-sterlinq ödədi.

2012-ci ilin payızında Modriç "Saraqosa" ilə qarşılaşmanın ikinci dəqiqəsinə "Real"da ilk qolunu vurdu. Amma İspaniyanın "Marca" jurnalı Modriçi 2012-ci ilin ən pis transferi adlandırdı. Lakin zaman keçdikcə xorvat futbolçu "Real"ın əsas mərkəz yarımmüdafiəçisi oldu.

2017/2018 mövsümündə Modriç "Real"ın ən yaxşı xorvat futbolçusu kimi tanındı. Çempionlar Liqasının qalibi kimi də sevindi.

### Milli komandada

Luka Modriç Xorvatiya milli komandasında ilk dəfə 2008-ci ilin 1 martında Argentina ilə qarşılaşmada debüt edib. 2008-ci il Avropa çempionatında o, komandasının əsas oyunçularından birinə çevrildi və turnirin simvolik milli komandasına daxil oldu. Həmin çempionatda Modriç həm qol vurdu və bir neçə dəfə uğurlu qol asissenti oldu. Komanda 1/8 finalda penallarda Türkiyəyə uduzaraq turniri tərk etdi.

2010-cu il mundialında Luka Modriç komandasının bütün matçlarında iştirak etdi, yaddaqalan oyunu ilə seçildi, bir oyunda həm qol vurdu, həm uğurlu ötürmə etdi. 2018-ci il Rusiya mundialında da Modriç komandasının əsas ümidlərindən biridir.

Luka Modriç Rusiya mundialında da ən yaxşı sözlərə layiqdir.

### Üç uşaq atası

Luka 25 yaşı olanda ailə qurub. Həyat yoldaşı Vanya Bosniç onun agenti olub. Dörd il birgə olduqdan sonra münasibətlərinin rəsmiləşdiriblər. Modriçin üç uşağı var: bir oğlan, iki qız. Modriç ailəcanlı adamdır, həmkarlarından fərqli olaraq səs-küylü məclislərdə, gecə klublarında əylənməyi sevmir.





❑ **Nazim SABİROĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 149 (7038) 12 iyul 2018



# Evli kişilərin niyə çox yaşadığı məlum oldu

**Araşdırmalara əsasən evli kişilər subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər.**

Adətən kişilər öz səhhətlərinə qarşı kifayyət qədər etinasızdılar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər.

Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.

İnfarkt və ya insult olmuş ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.

# Öncə ər ölüb, 11 saat sonra isə arvadı...

**Amerikanın Ohio ştatında 65 ildir evli olan ər-arvad bir-birindən 11 saat fərqlə dünyasını dəyişib. Harold ve Rut Knapke 11 avqustda qaldıqları Qocalar Evində həyata vida ediblər. Cütlüyün qızları Marqaret Knapke öncə 91 yaşındakı atasını, ondan bir neçə saat sonra isə 89 yaşındakı anasını itirdiyini deyib. Bir-birini uşaqlıqdan tanıyan cütlük 2-ci Dünya müharibəsi zamanı Haroldun orduya çağırılmasına görə uzun illər məktubla xəbərləşiblər. Müharibədən sonra evlənən ər-arvadın 6 uşağı, 14 nəvəsi və 8 nəticəsi var. Cənazədə Rutun tabutunu qız nəvələri, Haroldun tabutunu isə oğlan nəvələri çiynində daşıyıb. Cütlüyün digər qızı Karol Romie isə deyib ki, 20 avqustda ata-anası evliliklərinin 66-cı ildönümünü keçirməyə hazırlaşırmış.**

# İnsan kök olanda... yaddaş problemi yaranır

**Kök insanların beyni daha gec yaşlanır. Bu isə o deməkdir ki, onların alzeymıra (unutqanlıq) yaxalanma riski daha azdır. İngiltərədə aparılan araşdırmada 55 yaşı olan 2 milyon insan iştirak edib. Onların hər birinin son 20 ildəki qidalanma və yuxu rejimləri, tibbi problemləri, qəbul etdikləri dərmanlar və s. nəzərə alınıb. Nəticə göstərib ki, arıq insanların alzeymıra yaxalanmaq riski köklərdən 18 dəfə daha çoxdur. Mütəxəssislər bunun səbəbini kök insanlarda vitamin çatışmazlığı probleminə daha az rastlanması ilə əlaqələndirirlər.**



# Havası çatmayan sərnişin təyyarənin qapısını açdı



**Çində yayımlanan "South Chine Morning Post" qəzetinin xəbərinə görə, Hangzhou şəhərindən Çendguya uçuşa hazırlaşan 'Xiamen' hava yolu şirkətinə aid bir təyyarədə qəza çıxış qapısının açılması ilə sərnişinlər ciddi panikaya düşüblər. Təyyarə havaya qalxmaq istəyəndə yaşanan bu hadisənin səbəbkarı isə sərnişinlərdən biri olub. Bəzi sərnişinlər gördüklərini sosial mediada paylaşmaq üçün cib telefonları ilə baş verənləri çəkiblər. Bu şəkli paylaşan sərnişinlərdən biri isə aşağıdakıları yazıb: "Bir sərnişinin qəza qapısını açdığını ilk dəfə idi ki, gördüm. Bizə dedi ki, sadəcə, təmiz hava almaq istəyir... Ümid edirəm, uçuşumuz çox da təxirə salınmayacaq".**

Hər hansı bir zərər vermədiyi üçün hava yolu şirkəti sərnişin haqda cəza tədbiri görməyəcək. Çünki bu, onun ilk uçuşu olub və etdiyi hərəkət də hər hansı itkiyə, probleme səbəb olmayıb.

# İt sahibinin meyvə-tərəvəzini reklam edir

**Tayvandda yaşayan Syao Pi ləqəbli it dünyanın sevimlisi olub. O, başında müxtəlif meyvə şəkilləri ilə poza verir və bununla da sosial şəbəkədə populyarlıq qazanıb. Sahibi onun hər fotosunu facebookda paylaşdığı üçün onu izləyənlər də səbirsizliklə hər yeni fotonu gözləyirlər. 111 min nəfər qeyd edib ki, onlara heyvanın akkauntu xoş gəlir.**

Lenta.ru saytının xəbərinə görə, 7 yaşlı heyvanın sahibi meyvə və tərəvəz satır. İtin fotolarını paylaşmaqla satıcı öz məhsullarının satışını artırmaq məqsədi güdüb.

# Qədim belçikalıların dəhşətli adəti

**Alimlər qədim insanlarla bağlı maraqlı bir araşdırma hazırlayıblar. Araşdırmaya görə, neandertallar ətini yedikləri insanların sümüklərindən də nəqliyyat vasitəsi düzəldirmiş. Tübingen Universiteti araşdırmaçıları müəyyənləşdiriblər ki, bu gün Belçikanın yerləşdiyi torpaqlarda yaşayan ilk insanlar elə insan əti yeməklə sağ qalıblarmış. Alimlər Namur şəhəri yaxınlığındakı Goyet mağaralarındakı qazıntılarda çox sayda sümük tapıb. Sümüklərin üzərində kəsik izlərinə rast gəlinib. Alimlər bunun insan əli ilə edildiyini açıqlayıb. Araşdırmaçılara görə, neandertallar heyvanlar kimi, öz cinslərinin də dərilərini üzüb, parçalara ayırırmış. Bundan başqa, qədim insanlar oxlarının ucunu itiləmək üçün insan sümüklərindən istifadə edirmiş. Daha öncə Fransada həyata keçirilən qazıntılar zamanı da neandertalların insan əti yeməsi ilə bağlı sübutlar əldə edilmişdi.**

# Qoroskop




**QOÇ** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Unutmayın ki, ilin bu dövrü karyeranız üçün həddindən ziyadə uğurlu ərəfədir. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr edin.

**BUĞA** - Əgər qarşıdakı bir həftəni səmərəli şəkildə başa vurmaq fikriniz varsa, bu gündən ciddi ölçü götürməlisiniz. Xəyallar qoynundan düşüb real addımlar atın. Müştərək fəaliyyət üçün də uğurludur.

**ƏKİZLƏR** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyəcək. Qohumlarınızla münasibətləri tənzimləyin.

**XƏRÇƏNG** - Mənfi enerjili Ayın bürcünüzdə olması səhhətinizə mənfi təsir göstərə bilər. Bu səbəbdən də ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün olduqca vacibdir. Yeni işlərə də başlamayın.

**ŞİR** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.

**QIZ** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yoldaşlarınızla və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.

**TƏRƏZİ** - Günün ümumi axarı enerjinizi ikiqat artıracaq. Bu isə şəxsi işlərinizdə böyük irəliləyişlərin start götürəcəyinə şərait yaradacaq. İndiki halda gələcəyə ümidlə baxmalısınız.

**ƏQRƏB** - Güzəştə getməyi sevməyən təbiətin bu çağında bacardığınız qədər təmkin göstərin. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, həzin bir musiqiyə qulaq asasınız.

**OXATAN** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda isə istirahət edin.

**SUTÖKƏN** - Mövcud sıxıntılarınıza görə dünyanı ittiham etməyin. Baş verənlərin səbəbini insanlarda və özünüzdə arayın. İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün. Sevgi amilinə də diqqəti artırın.

**BALIQLAR** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaq üçün bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınlar "hesabı mən ödəyərəm" desə də...



**CNBC-də yayımlanan bir araşdırmaya görə, kişilərin 82 faizi bir qadınla görüşə çıxanda hesabı özləri ödəyirlər. Amma qadınların cəmi 58 faizi bunun belə olduğunu deyir. Bundan başqa, aydınlaşıb ki, qadınların yarısı bir görüşə getdikləri vaxt hesabı ödəməyi təklif etsələr də, bu təkliflərində heç də səmimi deyillər. Belə ki, onların 39 faizi hesabı ödəməyi təklif etdikləri vaxt bu təklifin rədd edilməsini gözləyir. 44 faizi isə hesabın kişilər tərəfindən ödənilməsinin onları əsəbləşdirdiyini deyir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100